# “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti

## Maliyyə hesabatları

*31 dekabr 2017-ci il və 31 dekabr 2016-cı il tarixlərində başa çatan illər üzrə müstəqil auditorun hesabatı ilə birlikdə*

# Mündəricat

**Müstəqil auditorun hesabatı**

**Maliyyə hesabatları**

Maliyyə vəziyyəti haqqında hesabatlar 1
Mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatlar 2
Pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar 3
Kapitalda dəyişikliklə haqqında hesabatlar 4

**Maliyyə hesabatları ilə bağlı qeydlər**

1. Ümumi məlumat 5
2. Hesabatların tərtibatının əsası və mühüm mühasibat uçotu prinsipləri 5
3. HPBS-də iştirak payının alınması 24
4. Qeyri-maddi aktivlər 25
5. Kəşfiyyat və qiymətləndirmə aktivləri 26
6. Əmlak, tikili və avadanlıqlar 26
7. Avans ödənişləri 27
8. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri 27
9. Mal-material ehtiyatları 27
10. Ticarət və digər debitor borcları 28
11. Digər cari aktivlər / digər cari öhdəliklər 28
12. Mənfəət vergisi 28
13. Səhm kapitalı 30
14. Faiz hesablanan kreditlər və borc öhdəlikləri 30
15. Bərpa üçün ehtiyat 31
16. Ticarət və digər kreditor borcları 32
17. Ödəniləcək vəsait 32
18. Gəlirlər 32
19. Əməliyyat mənfəəti/(zərəri) 32
20. Digər əməliyyat xərcləri 33
21. Ümumi və inzibati xərclər 33
22. Maliyyə xərcləri 33
23. Maliyyə riskinin idarə edilməsinin məqsədləri ve qaydaları 33
24. Əhəmiyyətli qeyri-nağd investisiya fəaliyyətləri 37
25. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri 37
26. Əlaqəli tərəflərlə əməliyyatlar 38
27. Hesabat tarixindən sonra baş vermiş hadisələr 38

Building a better working world

Ernst & Young Holdings (CIS) B.V.
Port Baku Towers Business Centre
South Tower, 9th floor
153, Neftchilar Ave.
Baku, AZ1010, Azerbaijan
Tel: +994 (12) 490 7020
Fax: +994 (12) 490 7017
www.ey.com/az

Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Port Baku Tauers Biznes Mərkəzi
Cənub Qülləsi, 9-cu mərtəbə
Neftçilər prospekti, 153
Bakı, AZ1010, Azərbaycan
Tel: +994 (12) 490 7020
Faks: +994 (12) 490 7017

# Müstəqil auditorun hesabatı

"AzerGold" QSC-nin rəhbərliyinə və Müşahidə Şurasına

### *Rəy*

Biz "AzerGold" QSC-nin ("Cəmiyyət") 31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatlardan və həmin tarixlərdə başa çatan illər üzrə mənfəət və ya zərər və digər ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə Cəmiyyətin maliyyə vəziyyətini və həmin tarixlərdə başa çatan illər üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

### *Rəy üçün əsas*

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın *Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti* bölməsində təsvir olunur.

Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Cəmiyyətdən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### *Maliyyə hesabatları üçün rəhbərliyin və Müşahidə şurası məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Cəmiyyəti ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Cəmiyyətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətlə bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Müşahidə Şurası Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

EY

Building a better working world

***Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Cəmiyyətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Bizim nəticələr audit hesabatımızın tarixinədək əldə etdiyimiz audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və ya şəraitlər Cəmiyyətin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz Müşahidə Şurasının nəzərinə, digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən etdiyimiz hər hansı əhəmiyyətli çatışmazlıqları çatdırırıq.

*Ernst & Young Holdings (CIS) B.V.*

Ernst & Young Holdinqs (SiAyEs) Bi.Vi. Şirkətinin
Azərbaycan Respublikasındakı filialı

22 fevral 2019-cu ilAzərbaycan,

Bakı, Neftçilər prospekti, 153

## Maliyyə vəziyyəti haqqında hesabatlar

*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 4 | 77,535,204 | 74,310,616 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | 5 | 665,271 | – |
| Əmlak, tikili və avadanlıqlar | 6 | 20,883,896 | 24,490,813 |
| Avans ödənişləri | 7 | 1,514,513 | – |
| Təxirə salınmış vergi aktivləri | 12 | 2,332,414 | 1,132,032 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **102,931,298** | **99,933,461** |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 4,972,134 | 174,294 |
| Ticarət və digər debitor borcları | 10 | 127,732 | – |
| Avans ödənişləri | 7 | 1,045,346 | 511,929 |
| Mal-material ehtiyatları | 9 | 7,993,852 | 40,143,536 |
| Digər cari aktivlər | 11 | 715,418 | 91,688 |
| **Cəmi cari aktivlər** | | **14,854,482** | **40,921,447** |
| **Cəmi aktivlər** | | **117,785,780** | **140,854,908** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Səhm kapitalı | 13 | 1,296,600 | 1,296,600 |
| Yığılmış zərər | | (94,069) | (22,151,793) |
| **Cəmi kapital** | | **1,202,531** | **(20,855,193)** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 14 | 104,940,321 | 133,098,386 |
| Bərpa üçün ehtiyat | 15 | 2,561,269 | 1,776,805 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **107,501,590** | **134,875,191** |
| **Cari öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 16 | 2,234,723 | 136,991 |
| Ödəniləcək vəsait | 17 | 700,000 | 26,200,000 |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 14 | 5,254,063 | 424,441 |
| Digər cari öhdəliklər | 11 | 892,873 | 73,478 |
| **Cəmi cari öhdəliklər** | | **9,081,659** | **26,834,910** |
| **Cəmi səhmdarın kapitalı və öhdəliklər** | | **117,785,780** | **140,854,908** |

Maliyyə hesabatlarını Cəmiyyət adından təsdiq edən və imzalayanlar:

Zakir İbrahimov, İdarə Heyətinin Sədri 22 fevral 2019-cu il

Teymur Nağıyev, Maliyyə şöbəsinin müdiri 22 fevral 2019-cu il

**Mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatlar**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2017-ci il tarixində başa çatan il | 5 iyul 2016-cı ildən (başlanğıc) 31 dekabr 2016-cı ilədək dövr |
|---|---|---|---|
| Gəlirlər | 18 | 77,306,206 | – |
| Satışların maya dəyəri | | (62,288,074) | – |
| **Ümumi mənfəət** | | **15,018,132** | **–** |
| Digər gəlir | | 150,494 | 3,063 |
| Digər əməliyyat xərcləri | 20 | (391,157) | (10,191) |
| Mal-material ehtiyatlarının silinməsi | 9 | – | (1,102,561) |
| Kəşfiyyat işlərinin aparılması hüquqlarının dəyərsizləşməsi | 4, 19 | – | (21,096,737) |
| Əvvəllər dəyərsizləşmiş kəşfiyyat işlərinin aparılması hüquqları üzrə dəyərsizləşmə zərərinin geri qaytarılması | 4, 19 | 14,081,026 | – |
| Ümumi və inzibati xərclər | 21 | (2,756,109) | (542,960) |
| **Əməliyyat mənfəəti/(zərəri)** | | **26,102,386** | **(22,749,386)** |
| Maliyyə xərcləri | 22 | (5,245,044) | (534,439) |
| **Mənfəət vergisindən əvvəl mənfəət/(zərər)** | | **20,857,342** | **(23,283,825)** |
| Mənfəət vergisi faydası | 12 | 1,200,382 | 1,132,032 |
| **İl üzrə gəlir/(zərər)** | | **22,057,724** | **(22,151,793)** |
| Digər ümumi gəlir | | – | – |
| **Cəmi ümumi gəlir/(zərər)** | | **22,057,724** | **(22,151,793)** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabatlar**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2017-ci il tarixində başa çatan il | 5 iyul 2016-cı ildən (başlanğıc) 31 dekabr 2016-cı ilədək dövr |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət/(zərər) | | 20,857,342 | (23,283,825) |
| *Mənfəət vergisindən əvvəlki mənfəəti/(zərəri) xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək üçün düzəlişlər* | | | |
| Faiz xərci | 22 | 5,158,337 | 534,439 |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi və tükənməsi | 19 | 5,067,981 | 93,357 |
| Qeyri-maddi aktivlərin amortizasiyası və tükənməsi | 19 | 10,231,602 | 287 |
| Kəşfiyyat işlərinin aparılması hüquqlarının dəyərsizləşməsi | 19 | – | 21,096,737 |
| Əvvəllər dəyərsizləşmiş kəşfiyyat işlərinin aparılması hüquqları üzrə dəyərsizləşmə zərərinin geri qaytarılması | 19 | (14,081,026) | – |
| Mal-material ehtiyatlarının silinməsi | 19 | – | 1,102,561 |
| Bərpa üçün ehtiyat üzrə diskontlaşdırılmış dəyərə düzəliş | 22 | 86,707 | – |
| Digər qeyri-nağd xərclər | | 46,521 | 48,354 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat pul vəsaitlərinin hərəkəti** | | **27,367,464** | **(408,090)** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| Ticarət və digər debitor borclarında artım | 10 | (127,732) | – |
| Digər cari aktivlərdə artım | 11 | (623,730) | (91,688) |
| Mal-material ehtiyatlarında azalma/(artım) | | 33,152,140 | (973,972) |
| Cari avans ödənişlərində artım | | (533,417) | (511,929) |
| Ticarət və digər kreditor öhdəliklərində artım | | 1,642,923 | 136,991 |
| Digər cari öhdəliklərdə artım | | 772,874 | 25,124 |
| **Əməliyyatlar üzrə əldə edilmiş / (istifadə edilmiş) pul vəsaitləri** | | **61,650,522** | **(1,823,564)** |
| Mənfəət vergisi üzrə ödənişlər | | – | – |
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş / (istifadə edilmiş) xalis pul vəsaitləri** | | **61,650,522** | **(1,823,564)** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak, tikili və avadanlıqlar və yatağın işlənməsi üzrə xərclər | | (2,227,719) | (483,896) |
| Kəşfiyyat və qiymətləndirmə aktivlərinə investisiya | | (581,921) | – |
| Digər qeyri-maddi aktivlərə investisiya | | (56,262) | (3,234) |
| Keçmiş podratçılardan aktivlər qrupunun alınması | 17 | (25,500,000) | (131,800,000) |
| **İnvestisiya fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitləri** | | **(28,365,902)** | **(132,287,130)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Səhmlərin emissiyasından daxilolmalar | 13 | – | 1,296,600 |
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri üzrə daxilolmalar | 23 | 11,802,681 | 133,430,000 |
| Faiz hesablanan kreditlər və borc öhdəliklərinin qaytarılması | 23 | (35,131,969) | – |
| Ödənilmiş faiz | 23 | (5,157,492) | (441,612) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə (istifadə edilmiş) / əldə edilmiş xalis pul vəsaitləri** | | **(28,486,780)** | **134,284,988** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım** | | **4,797,840** | **174,294** |
| İlin əvvəlinə/başlanğıcda (5 iyul 2016-cı il) pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 8 | 174,294 | – |
| **İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | 8 | **4,972,134** | **174,294** |

*Əlavə edilən qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.*

**Kapitalda dəyişikliklər haqqında hesabatlar**

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

| | Qeydlər | Səhm kapitalı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|
| **5 iyul 2016-cı il (başlanğıc tarix)** | | **–** | **–** | **–** |
| İl üzrə zərər | | – | (22,151,793) | **(22,151,793)** |
| Digər ümumi gəlir | | – | – | **–** |
| **Cəmi ümumi zərər** | | **–** | **(22,151,793)** | **(22,151,793)** |
| Səhmlərin emissiyası | 13 | 1,296,600 | – | **1,296,600** |
| **31 dekabr 2016-cı il** | | **1,296,600** | **(22,151,793)** | **(20,855,193)** |
| İl üzrə mənfəət | | – | 22,057,724 | **22,057,724** |
| Digər ümumi gəlir | | – | – | **–** |
| **Cəmi ümumi gəlir** | | **–** | **22,057,724** | **22,057,724** |
| **31 dekabr 2017-ci il** | | **1,296,600** | **(94,069)** | **1,202,531** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 1. Ümumi məlumat

“AzerGold” Qapalı Səhmdar Cəmiyyəti (“Cəmiyyət” və ya “AzerGold” QSC) Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2015-ci il tarixli 1047 nömrəli fərmanına əsasən yaradılmış və 5 iyul 2016-cı il tarixində Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmişdir. Cəmiyyətin 100% sahibi İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və Əmlak Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən təmsil olunan Azərbaycan Respublikasının hökumətidir (“Hökumət”).

Cəmiyyət Azərbaycan Respublikasında fəaliyyət göstərir. Cəmiyyətin qeydiyyata alınmış rəsmi ünvanı: AZ1000, Azərbaycan Respublikası, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi 40, Hökumət evi.

Cəmiyyət qiymətli və əlvan metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, idarə olunması, hasilatı, emalı və satışı, bu sahədə yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsi məqsədi ilə təsis edilmişdir.

25 may 2016-cı il tarixində, Azərbaycan Respublikası Prezidentinin 2065 nömrəli fərmanına uyğun olaraq, Cəmiyyətə Azərbaycan Respublikasının qanunvericiliyi ilə qəbul edilmiş və 30 dekabr 2006-cı il tarixində 30 illik müddət üçün qüvvəyə minmiş “Londeks Resorzis S.A.”, “Uill ənd Meyris S.A.”, “Fargeyt Mayninq Korporeyşn” və “Qlobeks İnternəşnl LLP”-nin (bundan sonra birlikdə “keçmiş podratçılar” adlandırılacaq) Qaradağ, Çovdar, Göydağ, Dağkəsəmən filiz sahələrinin, Köhnəmədən sahəsinin və Kürəkçay hövzəsi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişdə (“HPBS”) 100%-lik iştirak payını əldə etmək tapşırığı verilmişdir.

Qeyd 3-də müzakirə edildiyi kimi, 4 avqust 2016-cı il tarixində Cəmiyyət keçmiş podratçılar ilə alqı-satqı müqaviləsi (bundan sonra “ASM”) imzalamış və HPBS-də 100%-lik iştirak payı əldə etmişdir.

8 avqust 2016-cı il tarixində Azərbaycan Respublikası Prezidentinin 25 may 2016-cı il tarixli 2065 nömrəli fərmanına uyğun olaraq Cəmiyyət HPBS-nin xitamı haqqında ETSN ilə müqavilə imzalamış və HPBS-yə xitam vermişdir. O vaxtdan etibarən Cəmiyyət qeyri-HPBS qanunvericilik sistemində fəaliyyət göstərir.

## 2. Hesabatların tərtibatının əsası və mühüm mühasibat uçotu prinsipləri

### Hesabatların tərtibatının əsası

Cəmiyyətin maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsi (“MUBSK”) tərəfindən buraxılmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (“MHBS”) əsasında hazırlanmışdır.

Hazırki maliyyə hesabatları Cəmiyyətin ilk maliyyə hesabatlarıdır və 5 iyul 2016-cı ildən (başlanğıc) 31 dekabr 2016-cı ilədək uçot dövrünü və 31 dekabr 2017-ci il tarixində başa çatan ili əhatə edir. Aşağıda verilən mühasibat uçotu prinsiplərində digər hallar nəzərdə tutulmazsa, maliyyə hesabatları ilkin maya dəyəri əsasında hazırlanmışdır. Maliyyə hesabatları ABŞ dolları ilə təqdim edilir.

### Mühüm mühasibat uçotu prinsipləri

*Xarici valyutanın çevrilməsi*

Azərbaycan Respublikasında rəsmi pul vahidi Azərbaycan manatıdır. Lakin, 21 saylı *“Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri”* mühasibat uçotu beynəlxalq standartlarına (“MUBS”) və onun şərhlərinə müvafiq olaraq, Cəmiyyətin debitor borclarının, gəlirlərinin, xərclərinin, faiz hesablanan kreditlər və borc öhdəliklərinin çox hissəsi ABŞ dolları ilə qiymətləndirildiyi, yarandığı, ödənildiyi və ya ölçüldüyünə görə, Cəmiyyətin müvafiq hadisə və şəraitlərinin iqtisadi mahiyyətini əks etdirən funksional valyutası ABŞ dollarıdır.

Beləliklə, ABŞ dolları ilə ölçülməmiş əməliyyat və qalıqlar, 21 saylı MUBS-nin müvafiq müddəalarına əsasən ABŞ dolları ilə yenidən qiymətləndirilmişdir. Bu zaman gəlirlər, xərclər, kapital və qeyri-monetar aktivlər və öhdəliklər əməliyyat tarixlərində qüvvədə olan ilkin məzənnələrlə yenidən hesablanır. Monetar aktivlər və öhdəliklər isə maliyyə vəziyyəti haqqında hesabatın tarixinə qüvvədə olan məzənnələrlə yenidən hesablanır. ABŞ dolları ilə ifadə edilməyən monetar aktivlərin və öhdəliklərin yenidən hesablanmasından yaranan məzənnə gəlirləri və zərərləri isə mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabata aid edilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Maliyyə alətləri − əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə, aşağıda əks olunduğu kimi qeydə alınır.

*Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- Aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- Əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Cəmiyyətin əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülməlidir və bu zaman ehtimal edilməlidir ki, bazar iştirakçıları öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər. Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Cəmiyyət müvafiq müşahidə olunan giriş məlumatlarının istifadəsini maksimallaşdırmaq və müşahidə olunmayan giriş məlumatlarının istifadəsini minimallaşdırmaqla müəyyən şərtlərə uyğun olan və ədalətli dəyəri ölçmək üçün kifayət məlumatın mövcud olduğu qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyərləri qiymətləndirilmiş və ya açıqlanmış bütün aktivlər və öhdəliklər aşağıda təsvir olunan ədalətli dəyər iyerarxiyası daxilində ədalətli dəyərin qiymətləndirilməsi üçün bütövlükdə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında kateqoriyalara aid edilir:

- Səviyyə 1 – oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda bazar qiymətləri (təshih edilməmiş) mövcud olanlar;
- Səviyyə 2 – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları;
- Səviyyə 3 – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Cəmiyyət hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri ayrıca göstərilmir və müvafiq maliyyə vəziyyəti haqqında hesabatın aktiv və öhdəliklərinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz dərəcəsi metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsası və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Maliyyə alətləri − əsas qiymətləndirmə üsulları (davamı)

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faiz hesablanan alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

***Maliyyə aktivləri***

*İlkin tanıma və ölçmə*

Maliyyə aktivləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri, kreditlər və debitor borcları, ödəniş tarixinə qədər saxlanılan investisiyalar, satış üçün mövcud olan maliyyə aktivləri və ya effektiv hedcinqdə hedcinq alətləri kimi təyin edilmiş törəmə alətlər kimi təsnif edilir. Bütün maliyyə aktivləri ilkin olaraq ədalətli dəyərlə tanınır.

Cəmiyyət heç bir maliyyə aktivini ilkin tanınma zamanı ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan, ödəmə müddəti tamamlanana qədər saxlanılan investisiyalar, satış üçün mövcud olan maliyyə aktivləri və ya törəmə alət kimi təsnif etməmişdir.

*Sonrakı ölçmə*

Maliyyə aktivlərinin sonrakı ölçülməsi onların təsnifatından asılıdır:

<u>Ticarət və digər debitor borcları</u>

Müddəti adətən 30-180 gün olan ticarət və digər debitor borcları ümidsiz məbləğlər çıxılmaqla ilkin hesab-faktura məbləği ilə tanınır və uçota alınır.

<u>Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri</u>

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri kassada olan pul vəsaitlərindən, kommersiya banklarında cari hesablardan və banklardan tələb əsasında alınacaq və ya ödəmə müddəti üç aydan artıq olmayan depozitlərdən ibarətdir.

*Uçotdan çıxarma*

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi) aşağıdakı hallarda uçotdan çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- Cəmiyyət özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini “tranzit” razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya Cəmiyyət: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Maliyyə aktivinin və ya maliyyə aktivləri qrupunun dəyərsizləşməsi ehtimalına dair obyektiv sübutların olub-olmamasını müəyyən etmək üçün Cəmiyyət hər maliyyə vəziyyəti haqqında hesabat tarixində qiymətləndirmə aparır. Maliyyə aktivi və ya maliyyə aktivləri qrupu yalnız və yalnız aktivin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində dəyərsizləşmənin obyektiv sübutu olanda (baş vermiş “zərər hadisəsi”) və zərər hadisəsi maliyyə aktivi və ya maliyyə aktivləri qrupundan gözlənilən və etibarlı şəkildə qiymətləndirilə bilən pul vəsaitləri hərəkətlərinə təsir göstərəndə dəyərsizləşmiş hesab edilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Maliyyə alətləri − əsas qiymətləndirmə üsulları (davamı)

***Maliyyə aktivləri (davamı)***

*Maliyyə aktivlərinin dəyərsizləşməsi (davamı)*

Dəyərsizləşmənin sübutlarına borcalanın və ya borcalanlar qrupunun ciddi maliyyə çətinlikləri ilə rastlaşması, faizlərin və ya əsas məbləğin ödənilməsi öhdəliklərini pozması, yüksək müflisləşmə və ya digər maliyyə yenidənqurması ehtimalı ilə qarşılaşmasına dair sübutlar, habelə müşahidə edilə bilən bazar məlumatları əsasında qiymətləndirilən gələcək pul vəsaitləri hərəkətində ölçülə bilən azalmaya (misal üçün vaxtı keçmiş ödənişlərin səviyyələrində dəyişikliklərə və ya aktivlər üzrə zərərlərlə uzlaşan iqtisadi şəraitlərə) dair sübutlar daxildir.

*Amortizasiya hesablanmış dəyərlə uçota alınan maliyyə aktivləri*

Amortizasiya hesablanmış dəyərlə uçota alınan maliyyə aktivləri ilə bağlı Cəmiyyət əvvəlcə mühüm maliyyə aktivləri üçün fərdi şəkildə və fərdi olaraq mühüm olmayan maliyyə aktivləri üçün məcmu şəkildə dəyərsizləşməyə dair obyektiv sübutların olub-olmamasını qiymətləndirir. Cəmiyyət mühüm olub-olmadığından asılı olmayaraq fərdi şəkildə qiymətləndirilmiş maliyyə aktivləri üçün dəyərsizləşməyə dair obyektiv sübutun olmaması qərarına gələrsə, həmin aktivləri analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil edir və onların dəyərsizləşmə baxımından qiymətləndirilməsini məcmu şəkildə aparır. Dəyərsizləşmə baxımından fərdi şəkildə qiymətləndirilmiş və dəyərsizləşmə zərərləri əks etdirilmiş və ya əks etdirilməyə davam edən aktivlər dəyərsizləşmə baxımından məcmu şəkildə qiymətləndirməyə daxil edilmir.

Dəyərsizləşmə zərərlərinin baş verməsinə dair obyektiv sübut olarsa, zərərin məbləği aktivlərin balans dəyəri ilə hesablanmış gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri (hələ çəkilməmiş gələcəkdə gözlənilən kredit zərərləri nəzərə alınmadan) arasında fərq kimi ölçülür. Hesablanmış gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri maliyyə aktivlərinin ilkin effektiv faiz dərəcəsi ilə diskont edilir.

***Maliyyə öhdəlikləri***

*İlkin tanınma və ölçmə*

Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, faiz hesablanan kreditlər və borc öhdəlikləri, kreditor borcları və ya effektiv hedcinqdə hedcinq aləti təyin olunan törəmə alətlər kimi təsnif edilir.

Bütün maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və faiz hesablanan kreditlər və borc öhdəlikləri üçün birbaşa aid edilən əməliyyat xərcləri əlavə edilir.

Cəmiyyət ilkin tanımada hər hansı maliyyə öhdəliyini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan və ya effektiv hedcinqdə hedc aləti kimi təyin edilmiş törəmə alət kimi təyin etməmişdir.

*Sonrakı ölçülmə*

Maliyyə öhdəliklərinin sonrakı ölçülməsi onların aşağıdakı təsnifatından asılıdır:

<u>Faiz hesablanan kreditlər və borc öhdəlikləri</u>

İlkin tanınmadan sonra müqavilə ilə nəzərdə tutulmuş ödəniş cədvəli olan faiz hesablanan kreditlər və borc öhdəlikləri daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də effektiv faiz dərəcəsi metodu ilə amortizasiya prosesi vasitəsilə əks etdirilir.

Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən diskontu və ya mükafatı və effektiv faiz dərəcəsi metodunun bir hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. Effektiv faiz dərəcəsi metodu ilə amortizasiya mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda maliyyə xərclərinə daxil edilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Maliyyə alətləri − əsas qiymətləndirmə üsulları (davamı)

Ticarət və digər kreditor borcları, keçmiş podratçılara ödəniləcək vəsait

Ticarət və digər kreditor borcları və keçmiş podratçılara ödəniləcək vəsait maya dəyəri ilə uçota alınır. Bu maya dəyəri alınmış mal və xidmətlər üçün gələcəkdə ödəniləcək vəsaitin ədalətli dəyəridir.

*Uçotdan çıxarma*

Maliyyə öhdəlikləri bu halda uçotdan çıxarılır ki, həmin öhdəlik ya dayandırılmış, ya ləğv olunmuş, ya da müddəti bitmiş olsun.

Əgər mövcud maliyyə öhdəliyi eyni kreditor tərəfindən çox fərqli şərtlərlə başqası ilə əvəz edilərsə və ya mövcud öhdəliyin şərtləri çox dəyişərsə, bu dəyişiklik və ya əvəz edilmə ilkin öhdəliyin uçotdan çıxarılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərlərindəki fərq mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda öz əksini tapır.

Maliyyə aktivləri və maliyyə öhdəlikləri haqqında əlavə məlumat 23-cü Qeyddə təqdim edilir.

### Borc öhdəlikləri

Nəzərdə tutulan istifadəyə və satışa hazır olması üçün əhəmiyyətli vaxtın sərf olunmasını tələb edən aktivin əldə edilməsi və ya tikintisi birbaşa aid edilə bilən borc öhdəlikləri üzrə məsrəflər müvafiq aktivlərin dəyərinin bir hissəsi kimi kapitallaşdırılır. Bütün digər borc öhdəlikləri üzrə məsrəflər yarandığı dövrdə xərclərə silinir. Borc öhdəlikləri üzrə məsrəflər müəssisənin vəsaitlərin borc götürülməsi ilə əlaqədar çəkdiyi faizlər və digər xərclərdən ibarətdir.

Vəsaitlər xüsusilə layihəni maliyyələşdirmək üçün borc götürüləndə kapitallaşdırılmış məbləğ faktiki borc öhdəlikləri üzrə çəkilmiş xərcləri əks etdirir. Xüsusilə layihəni maliyyələşdirmək üçün borc götürülmüş vəsaitlərdən qısa müddətə əlavə fondlar mövcud olanda, həmin məbləğlərin müvəqqəti yatırılmasından əldə edilən gəlir də kapitallaşdırılır və cəmi kapitallaşdırılmış borc öhdəlikləri üzrə məsrəflərdən çıxılır. Layihəni maliyyələşdirmək üçün borc götürülmüş vəsaitlər ümumi borc öhdəliklərinin bir hissəsi olanda kapitallaşdırılmış məbləğ dövr ərzində Cəmiyyətin müvafiq ümumi borc öhdəliklərinə tətbiq edilən orta hesablanmış dərəcələri istifadə etməklə hesablanır. Bütün digər borc öhdəlikləri mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda çəkildiyi dövrdə tanınır.

### Gəlirlərin tanınması

Gəlirlər Cəmiyyət tərəfindən əldə edilməsi gözlənilən iqtisadi fayda miqdarında və etibarlı şəkildə ölçülə bildikdə tanınır. Malların satılmasından gəlirlər mallar üzrə mülkiyyət hüququ müştəriyə çatdırıldığı zaman mülkiyyət hüququndan irəli gələn əhəmiyyətli risk və faydalar alıcıya keçəndə tanınır. Bu, adətən məhsul fiziki olaran alıcıya təqdim ediləndə baş verir.

Xüsusi gəlirlərlə bağlı əməliyyatda aşağıdakı meyar da qarşılanır:

*Qızıl külçələrinin satışı*

Qızıl külçələrin satışından əldə edilən gəlirlər mülkiyyət hüququ ilə bağlı əhəmiyyətli risklərin və faydaların alıcıya keçdiyi və satış qiymətlərinin və əyarın müəyyən olduğu və ya dəqiq şəkildə ölçülməsi mümkün olduğu zaman tanınır. Əyar təhlilinin nəticələri ərintidə qızılın və gümüşün miqdarını göstərir, bunun da qiyməti hər bir metalın bazar kotirovkaları əsasında müəyyən edilir. Qızıl ilə birlikdə istehsal olunan gümüşün ərintidə miqdarı əlavə məhsul hesab edilir və gəlirlərdə tanınır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Vergilər

***Cari ilin mənfəət vergisi***

Cari və əvvəlki dövrlər üzrə cari ilin mənfəət vergisi aktivləri və öhdəlikləri vergi orqanları tərəfindən və yaxud vergi orqanlarına ödənilməsi gözlənilən məbləğ kimi ölçülür. Cəmiyyət mənfəət vergisini Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq 20%-lik dərəcə ilə hesablayır və ödəyir.

***Təxirə salınmış mənfəət vergisi***

Təxirə salınmış mənfəət vergisi, maliyyə vəziyəti haqqında hesabat metodundan istifadə etməklə, aktivlərin və öhdəliklərin vergi bazası və onların hesabat tarixində maliyyə hesabatları məqsədləri üçün göstərilmiş qalıq dəyərləri arasında müvafiq maliyyə hesabatlarının tarixinə mövcud olan müvəqqəti fərqlər üzrə müəyyən edilir.

Təxirə salınmış mənfəət vergisi öhdəlikləri aşağıdakılar istisna olmaqla vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün əks etdirilir:

- Təxirə salınmış mənfəət vergisi öhdəliyi qudvilin və ya şirkətlərin birləşməsi olmayan əməliyyat zamanı aktiv və ya öhdəliyin ilkin tanınmasından irəli gəldiyi, eləcə də əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar; və
- Müvəqqəti fərqlərin qaytarılması vaxtının nəzarət altında saxlanıla bildiyi və müvəqqəti fərqlərin yaxın gələcəkdə qaytarılması ehtimalı olmayan hallarda, törəmə müəssisələrə, asılı müəssisələrə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə əlaqədar vergiyə cəlb olunan müvəqqəti fərqlər.

Təxirə salınmış mənfəət vergisi aktivləri, aşağıdakı hallar istisna olmaqla, gəlirdən çıxılan bütün müvəqqəti fərqlər, istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi zərərlərinin sonrakı dövrə keçirilməsi ilə əlaqədar gəlirdən çıxılan müvəqqəti fərqlərin, və istifadə edilməmiş vergi aktivləri və istifadə edilməmiş vergi zərərlərinin sonrakı dövrə keçirilməsi üçün vergiyə cəlb olunan mənfəətin mövcud olacağı dərəcədə, əks etdirilir:

- Çıxılan müvəqqəti fərqə aid olan təxirə salınmış mənfəət vergisi aktivinin müəssisələrin birləşməsi olmayan əməliyyat zamanı aktiv və ya öhdəliyin ilkin müəyyən edilməsindən irəli gəldiyi və əməliyyat zamanı uçot mənfəətinə və ya vergiyə cəlb olunan mənfəət və ya zərərə təsir göstərmədiyi hallar; və
- Törəmə müəssisələrə, asılı müəssisələrə investisiyalarla və birgə müəssisələrdə iştirak payları ilə bağlı vergiyə cəlb olunan müvəqqəti fərqlərlə əlaqədar, təxirə salınmış vergi aktivləri yalnız yaxın gələcəkdə müvəqqəti fərqlərin qaytarılması və müvəqqəti fərqləri qarşılaya biləcək vergiyə cəlb olunan mənfəətin mövcudluğunun mümkünlüyü həddində tanınır.

Təxirə salınmış mənfəət vergisi aktivlərinin balans dəyəri hər maliyyə vəziyyəti haqqında hesabat tarixində nəzərdən keçirilir və təxirə salınmış mənfəət vergisi aktivlərinin tam və ya qismən istifadə edilməsi üçün kifayət qədər vergiyə cəlb olunan mənfəətin mövcudluğu ehtimal edilmədiyi halda azaldılır.

Təxirə salınmış mənfəət vergisi aktivləri və öhdəlikləri, hər maliyyə vəziyyəti haqqqında hesabat tarixinə qüvvədə olan və ya əsas etibarı ilə qüvvədə olan vergi dərəcələri (və vergi qanunları) əsasında aktivlərin satıldığı və ya öhdəliklərin yerinə yetirildiyi ildə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə ölçülür.

Mənfəət və zərərdən kənarda tanınmış maddələrlə bağlı təxirə salınmış vergisi mənfəət və zərərdən kənarda tanınır. Təxirə salınmış vergi maddələri müvafiq əməliyyatlara uyğunlaşdırmaqla ya digər ümumi gəlirdə, ya da birbaşa kapitalda tanınır.

Təxirə salınmış vergi aktivləri və təxirə salınmış vergi öhdəlikləri bu halda əvəzləşdirilir ki, cari vergi aktivlərini cari mənfəət vergisi öhdəlikləri ilə qarşılıqlı əvəzləşdirmək üçün qanuni qüvvəyə minmiş hüquq mövcud olsun və təxirə salınmış vergilər vergiyə cəlb olunan eyni müəssisəyə və eyni vergi orqanına aid olsun.

Müəssisələrin birləşməsinin bir hissəsi olaraq əldə edilmiş, lakin həmin tarixdə ayrıca tanınan maddənin meyarlarına uyğun gəlməyən vergi faydaları sonradan, faktlar və şəraitlər haqqında yeni məlumat dəyişəndə tanına bilər. Ölçmə müddəti ərzində çəkildiyi halda, düzəliş qudvilin azalması (qudvildən artıq olmadığı təqdirdə) kimi digər ümumi gəlirdə uçota alına bilər.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Vergilər (davamı)

### Əlavə dəyər vergisi

Vergi orqanları satış və alışlar üzrə əlavə dəyər vergisinin ("ƏDV") əvəzləşdirilərək ödənilməsinə icazə verir.

*Büdcədən tələb edilə bilən ƏDV*

Büdcədən tələb edilə bilən ƏDV maliyyə vəziyyəti haqqında hesabatın tarixində əvəzləşdirilməmiş alışlara aiddir. Büdcədən tələb edilə bilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər. Rəhbərlik mütəmadi olaraq Büdcədən tələb edilə bilən ƏDV-in qalığının əvəzləşdirilmə ehtimalını nəzərdən keçirir.

*ƏDV üzrə kreditor borcu*

ƏDV üzrə kreditor borcu maliyyə vəziyyəti haqqında hesabat tarixində ödənilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, sifarişçilərdən debitor borcları toplananda vergi orqanlarına ödəniləcək satışlara aid olan vergini təmsil edir. Bundan əlavə, maliyyə vəziyyəti haqqında hesabat tarixində ödənilməmiş satışa aid olan ƏDV (təxirə salınmış ƏDV) həmçinin ƏDV üzrə ödəniləcək məbləğlərə daxildir.

### Sosial və pensiya fondlarına ödəmələr

Dəyişikliklər edilmiş "Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu"na uyğun olaraq Cəmiyyət öz işçiləri üçün Dövlət Sosial Müdafiə Fonduna ödənişlər etməlidir. Cəmiyyətin bu ödəmələri yerli standartlara uyğun uçota əsasən 2017-ci və 2016-cı illərdə işçilərin əmək haqlarının 22%-ni təşkil etmişdir.

### Avans ödənişləri

Avans ödənişləri qarşı-tərəfin öz öhdəliklərini yerinə yetirməməsi riski yarananda hər hansı məbləğdə ehtiyatı çıxmaqla ödənişin ilkin məbləği ilə tanınır və uçota alınır. Avans ödənişləri ehtimal edilən başa çatma müddətindən və alınmış mal və xidmətlərin xüsusiyyətindən asılı olaraq cari və ya uzunmüddətli kimi təsnif edilir.

### İcarə müqavilələri

Razılaşmanın icarə olub-olmamasının və ya icarəni daxil edib-etməməsinin müəyyən edilməsi başlanğıc tarixində razılaşmanın mahiyyətinə əsaslanır: razılaşmanın xüsusi aktiv və aktivlərin istifadəsindən asılı olub-olmadığı və ya razılaşmanın aktivdən istifadə etmək hüququnu verib-vermədiyi müəyyən edilir.

*Cəmiyyət icarəçi qismində*

İcarəyə götürülən aktiv üzrə mülkiyyət hüququna aid olan risklərin və faydaların əksəriyyətini Cəmiyyətə keçirən maliyyə icarələri icarə başlananda icarəyə götürülmüş əmlakın ədalətli dəyəri və ya, bu dəyər daha aşağı olarsa, minimal icarə ödənişlərinin cari dəyəri ilə kapitallaşdırılır. İcarə ödənişləri maliyyə məsrəfləri və icarə öhdəliyində azalma arasında elə bölüşdürülür ki, öhdəliyin qalan balansı üzrə sabit faiz dərəcəsi əldə edilsin. Maliyyə məsrəfləri mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda inzibati və əməliyyat xərclərinin tərkibində tanınır. İcarəyə götürülən aktivlər üzrə köhnəlmə aktivin faydalı istifadə müddəti ərzində hesablanır. Lakin Cəmiyyətin icarə müddətinin sonunadək mülkiyyət hüququnu əldə edəcəyi haqqında kifayət qədər əminlik olmadığı təqdirdə, aktiv üzrə köhnəlmə aktivin proqnozlaşdırılan faydalı istifadə müddəti və ya icarə müddəti üzrə (bunlardan hansı daha qısa olarsa) hesablanır. Əməliyyat icarəsi üzrə ödənişlər icarə müddəti ərzində bərabər hissələrə bölünməklə mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda inzibati və əməliyyat xərclərinin tərkibində xərc kimi qeyd olunur.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### İcarə müqavilələri (davamı)

*Cəmiyyət icarəyə verən qismində*

Cəmiyyətin aktiv üzrə mülkiyyət hüququna aid olan bütün risk və faydaların əksəriyyətini ötürmədiyi icarələr əməliyyat icarələri kimi təsnif edilir. Əməliyyat icarəsi üzrə danışıqlar zamanı çəkilən ilkin birbaşa xərclər icarəyə götürülən aktivin balans dəyərinə əlavə olunur və icarə gəliri ilə eyni əsaslarla icarə müddəti ərzində tanınır. Şərti icarə haqları əldə edildiyi dövr ərzində gəlir kimi tanınır.

### Müəssisələrin birləşməsi

Müəssisələrin birləşməsi alış metodu üzrə uçota alınır. Alışın dəyəri alış tarixindəki ədalətli dəyərlə ölçülən köçürülmüş ödəniş məbləği və satın alınan müəssisədə qeyri-nəzarət payları məbləğinin məcmusu şəklində ölçülür. Hər bir müəssisə birləşməsi üçün alıcı müəssisə satın alınan müəssisədə qeyri-nəzarət paylarını satın alınan müəssisənin xalis müəyyən edilə bilən aktivlərinin proporsional payı ilə ölçür. Çəkilən alış məsrəfləri xərclərə silinir və inzibati xərclərə aid edilir. Cəmiyyət hər hansı müəssisəni satın aldıqda, o, müvafiq təsnifləşdirmə üçün və müqavilə şərtləri, iqtisadi şərait və alış tarixində qüvvədə olan şərtlərə əsasən təyin olunma üçün nəzərdə tutulmuş maliyyə aktiv və passivlərini qiymətləndirir. Bura əsas müqavilədə əlaqədar törəmə alətlərin satın alınan müəssisə tərəfindən ayrılması da aid edilir.

Müəssisələrin mərhələli birləşməsi zamanı alıcı müəssisənin satın alınan müəssisədə hər əvvəlki mərhələdə sahib olduğu pay, alış tarixindəki ədalətli dəyərlə yenidən qiymətləndirilir və mənfəət və ya zərərdə əks etdirilir.

### Biznes olmayan aktivlər qrupunun alınması

Cəmiyyət biznes olmayan aktivlər qrupunu əldə etdikdə, əldə etmə dəyərini əldə olunan aktivlər qrupunun fərdi müəyyən edilə bilən aktiv və öhdəlikləri arasında aşağıdakı kimi bölüşdürür:

- İlkin olaraq maya dəyərindən fərqli olan məbləğdə qiymətləndirilmiş müəyyən edilə bilən aktiv və öhdəliklər üçün müəssisə ilkin olaraq həmin aktiv və ya öhdəliyi tətbiq olunan MHBS standartında qeyd olunan məbləğ ilə qiymətləndirir;
- Müəssisə ilkin olaraq maya dəyərindən fərqli olan məbləğ ilə qiymətləndirilmiş aktiv və öhdəliklərə aid edilən məbləğləri əldə olunan aktivlər qrupunun əməliyyat qiymətindən çıxır və sonra qalıq əməliyyat qiymətini qalan müəyyən edilə bilən aktiv və öhdəliklərə onların əldə olunma tarixinə olan müvafiq ədalətli dəyərlərinə əsaslanaraq aid edilir.

### Əmlak, tikili və avadanlıqlar

Mədən tikintisi başa çatandan sonra ilk öncə “Tikilməkdə olan aktivlər”ə aid edilən aktivlər “Tikili, avadanlıq və nəqliyyat vasitələri”nə və ya “İstehsal mədənləri”nə köçürülür. “Tikili, avadanlıq və nəqliyyat vasitələri” və “İstehsal mədənləri”nin maddələri yığılmış köhnəlməni və yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla maya dəyəri ilə əks etdirilir.

İstehsal dövrü ərzində hər bir fərdi aktivin tikintisinə birbaşa aid olan xərclər aktiv istismaya verilmək üçün hazır olanadək “Tikilməkdə olan aktivlər” kimi kapitallaşdırılır. Aktiv istismara veriləndə “Tikili, avadanlıq və nəqliyyat vasitələri”nə və ya “İstehsal mədənləri”nə köçürülür. Aktivin istismarı başladığı tarixdən sonra əlavə kapitallaşdırılmış xərclər aktivin köçürüldüyü “Tikili, avadanlıq və nəqliyyat vasitələri”nə və ya “İstehsal mədənləri”nə birbaşa aid edilir.

Aktivin ilkin dəyəri alış qiyməti və ya tikinti dəyərindən, aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclərdən, bərpa dəyərinin ilkin qiymətləndirməsindən və, müəyyən meyarlara uyğun aktivlər üçün, borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Alış qiyməti və ya tikinti dəyəri ödənilmiş məbləğin və aktivi əldə etmək üçün verilmiş hər hansı digər vəsaitin ədalətli dəyərinin cəminə bərabərdir.

Mədən tikintisi layihəsi istehsal mərhələsinə keçəndə müəyyən tikinti xərclərinin kapitallaşdırılması dayandırılır və xərclər ya mal-material ehtiyatları hesab olunur, yaxud da, dağ-mədən aktivlərinin əlavələri, təkmilləşdirilmələri və ya yeni işləmələri, yeraltı yatağın işlənməsi və ya istismar üçün yararlı ehtiyatın işlənməsi ilə bağlı kapitalaşdırılma meyarına uyğun olan xərclər istisna olmaqla, xərclərə silinir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Əmlak, tikili və avadanlıqlar (davamı)

*Köhnəlmə, tükənmə və amortizasiya*

İstehsal mədənləri daxilində mədənin işlənməsi üzrə yığılmış xərclər müvafiq mədənin iqtisadi baxımdan bərpa edilə bilən ehtiyatları üzrə istehsal vahidi əsasında tükənməyə silinir, lakin istifadə müddəti yatağın istifadə müddətindən qısa olan aktivlər üzrə tükənmə istifadə müddəti üzrə bərabər hissələrə bölünməklə hesablanır.

Çeşidlənməmiş filiz (“ÇF”) xərcləri və çeşidləmədən sonrakı xərclər üçün uçot vahidi qızılın bərpa edilə bilən qızıl unsiyasıdır. Yatağın işlənməsi xərcinin tükənməsi üçün istehsal vahidi dərəcəsi hazırkı tarixədək çəkilmiş xərcləri nəzərə alır.

Digər əmlak, tikili və avadanlıqlar, məsələn səyyar yataq avadanlığı üzrə köhnəlmə adətən onların təxmin edilən istifadə müddətləri üzrə bərabər hissələrə bölməklə hesablanır:

- Tikililər — yeddi il (2016-cı il: yeddi il);
- Nəqliyyat vasitələri — üç il (2016-cı il: üç il);
- Maşın və avadanlıqlar — dörd il (2016-cı il: dörd il);
- Mebel və qurğular — beş il (2016-cı il: beş il);
- Kompüter avadanlığı — dörd il (2016-cı il: dörd il).

Əvvəl tanınmış əmlak, tikili və avadanlıq obyektinin və onun hər hansı əhəmiyyətli hissəsinin tanınması satışdan sonra və ya onun istifadəsi və ya satışından gələcəkdə iqtisadi mənfəətin əldə edilməsi gözlənilməyəndə dayandırılır. Aktivin tanınmasının dayandırılması nəticəsində yaranan hər hansı gəlir və ya zərər (xaric etmədən əldə edilən xalis mədaxil və aktivin balans dəyəri arasındakı fərq kimi hesablanır) aktivlərin tanınması dayandırıldığı zaman Cəmiyyətin mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında əks olunur.

Aktivin son qalıq dəyəri, istifadə müddəti və köhnəlmənin hesablanması metodları hər hesabat tarixində yenidən baxılır və lazım olduğu təqdirdə gələcək dövrlərə aid olan dəyişikliklər edilir. Tikilməkdə olan aktivlər üzrə köhnəlmə hesablanmır.

*Əsaslı təmir və bərpa işləri*

Əsaslı təmir və bərpa işləri üzrə məsrəflər əvəz etmə aktivlərinin və ya onların bir hissəsinin maya dəyərindən və təmir üzrə xərclərdən ibarətdir. Ayrılıqda amortizasiya edilmiş və hal-hazırda silinmiş aktiv və ya onun hissəsi əvəz olunduqda, və obyekt ilə əlaqəli gələcək iqtisadi səmərələrin uzadılmış xidmət müddəti vasitəsilə Cəmiyyətə verilməsi ehtimalı mövcud olduqda, məsrəflər kapitallaşdırılır.

Aktivin hissəsi ayrılıqda komponent hesab edilməyəndə, əvəz etmə dəyəri əvəz olunmuş aktivlərin dərhal silinən balans dəyərini hesablamaq üçün istifadə edilir. Təmir ilə bağlı bütün digər gündəlik xərclər çəkildikcə xərclərə silinir.

### Kəşfiyyat və qiymətləndirmə aktivləri

*Lisenziyanın alınmasından əvvəlki xərclər*

Lisenziyanın alınmasından əvvəlki xərclər Cəmiyyətin xüsusi ərazidə kəşfiyyat işlərini aparmaq hüququnu əldə etdikdən öncə çəkilmiş xərclərə aiddir. Bu cür xərclərə kəşfiyyat məlumatının əldə edilməsi və bu məlumatın təhlili ilə bağlı xərclər daxil ola bilər. Bu cür xərclər çəkildiyi dövrdə xərclərə silinir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Kəşfiyyat və qiymətləndirmə aktivləri (davamı)

*Kəşfiyyat və qiymətləndirmə üzrə məsrəflər*

Perspektiv obyektlərin və kəşfiyyat hüquqlarının əldə edilməsi üzrə məsrəfləri və kəşfiyyat və qiymətləndirmə əməliyyatlarında çəkilmiş xərcləri daxil edən kəşfiyyat obyektləri və icarələri üzrə məsrəflər kəşfiyyat və qiymətləndirmə aktivləri kimi kapitallaşdırılır.

Kəşfiyyat və qiymətləndirmə fəaliyyəti aşağıdakıları daxil edir:

- Tarixi kəşfiyyat məlumatlarının tədqiqi və təhlili;
- Geofiziki tədqiqat vasitəsilə kəşfiyyat məlumatlarının toplanması;
- Qazma prosesinin tədqiqi və seçmə;
- Ehtiyatların keyfiyyətinin və həcminin müəyyən edilməsi və tədqiqi;
- Nəqliyyat və infrastruktur tələblərinin təhlili;
- Dağ-mədən və maliyyə tədqiqatının aparılması.

Kəşfiyyat və qiymətləndirmə aktivləri kəşfiyyat və qiymətləndirmə mərhələsində gələcək dövrlərə keçirilir və kommersiya ehtiyatlarının müəyyən edilənə qədər və ya müəyyənləşdirmə prosesi başa çatana qədər silinir.

Kəşfiyyat və qiymətləndirmə aktivlərinin dəyərsizləşmə üzrə qiymətləndirilməsi 6 saylı *"Mineral resursların işlənməsi və qiymətləndirilməsi"* adlı MHBS-də verilən dəyərsizləşmə göstəricilərinə uyğun olaraq aparılır. Kəşfiyyat və qiymətləndirmə mərhələsində amortizasiya xərci hesablanmır.

Kommersiya baxımından effektiv ehtiyatlar müəyyən edildikdən və onların işlənilməsinə razılıq verildikdən sonra kəşfiyyat və qiymətləndirmə aktivləri dəyərsizləşmə üzrə sınaqdan keçirilir və tikilməkdə olan aktivlərə köçürülür.

Kəşfiyyat və qiymətləndirmə üzrə kapitallaşdırılmış məsrəflər üçün hər bir hesabat tarixində öncə tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmaması və ya azalmasının hər hansı əlamətinin olub-olmamasını müəyyənləşdirmək üçün qiymətləndirmə aparılır. Bu cür əlamət mövcud olduqda, Cəmiyyət bərpa edilə bilən məbləği hesablayır.

Kəşfiyyat və qiymətləndirmə üzrə məsrəflər tikilməkdə olan aktivlərə köçürüldükdən sonra, tikili, quraşdırılma və infrastruktur obyektlərinin tamamlanması üzrə bütün məsrəflər tikilməkdə olan aktivlər daxilində kapitallaşdırılır.

Kommersiya hasilatı başlayan zaman, öncə kapitallaşdırılmış kəşfiyyat, qiymətləndirmə və işlənilmə xərcləri İstehsal mədənlərinə köçürülür və istehsal vahidi əsasında mədən əmlakının kommersiya ehtiyatları üzrə tükənməyə silinir.

Ehtiyatların artımı ilə nəticələnəcəyi gözlənilən potensial mineral ehtiyatların qiymətləndirilməsi ilə bağlı kommersiya hasilatın başlanması tarixindən sonra çəkilmiş kəşfiyyat və qiymətləndirmə üzrə məsrəflər kəşfiyyat və qiymətləndirmə aktivləri kimi kapitallaşdırılır. Ehtiyat artımının sübutu mövcud olduqda, bu cür xərclər üzrə dəyərsizləşmə baxımından yoxlanılır və İstehsal mədənlərinə köçürülür.

### Qeyri-maddi aktivlər

*Dağ-mədən və kəşfiyyat işlərinin aparılması üçün əldə edilmiş hüquqlar*

Qeyd 1-də müzakirə edildiyi kimi, ASM-ə uyğun olaraq Cəmiyyət keçmiş podratçılardan dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüququnu daxil edən bir aktivlər qrupunu almışdır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Qeyri-maddi aktivlər (davamı)

*Dağ-mədən və kəşfiyyat işlərinin aparılması üçün əldə edilmiş hüquqlar (davamı)*

Cəmiyyət dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüququnun ədalətli dəyərinin müəyyənləşdirilməsi üçün diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti modelini istifadə etmişdir və mədənlər üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini mədənlərin xidmət müddəti planına əsaslanaraq hesablamışdır. Gözlənilən gələcək pul vəsaitlərinin hərəkəti əldə olunma tarixinə olan mədənin xidmət müddəti planını istifadə edərək gələcək hasilatın, əmtəə qiymətlərinin, əməliyyat məsrəflərinin və əsaslı məsrəflər üzrə proqnozların hesablanmasına əsaslanır.

Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları ilkin olaraq Cəmiyyət qarşısında ilkin dəyər ilə tanınır. Dəyər əldəetmə üzrə xərcləri dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqlarına, onların əldə olunma tarixində nisbi ədalətli dəyərlərinə əsaslanaraq, aid etməklə müəyyən edilmişdir.

Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları potensial mineral ehtiyatlarının və yığılmış tükənmənin qiymətləndirilməsindən irəli gələn dəyərsizləşmə üçün ehtiyatları çıxmaqla maya dəyəri ilə uçota alınır. Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları müvafiq sahənin cəmi ehtiyatları üzrə istehsal vahidi əsasında tükənməyə silinir. Tükənmə müvafiq sahənin istehsal mərhələsi başlayanda başlayır.

*Digər qeyri-maddi aktivlər*

Digər qeyri-maddi aktivlərə əsasən dörd il istifadə müddəti üzrə amortizasiya hesablanan kompüter proqramı aiddir.

Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlərin istifadə müddəti üzrə amortizasiya hesablanır və qeyri-maddi aktivin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamət olduqda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır. Məhdud istifadə müddəti olan qeyri-maddi aktiv üçün amortizasiya müddəti və amortizasiya metoduna ən azı hər hesabat dövrünün sonunda yenidən baxılmalıdır. Gözlənilən istifadə müddəti və ya aktivin özündə təcəssüm etdirdiyi gələcək iqtisadi səmərənin gözlənilən istehlak strukturundakı dəyişikliklər, müvafiq olaraq, amortizasiya müddəti və ya metodunun dəyişdirilməsi yolu ilə hesabata alınır və uçot hesablamalarında dəyişikliklər hesab olunur. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri Cəmiyyətin mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında qeyri-maddi aktivin funksiyasına uyğun xərc kateqoriyasında əks olunur.

Qeyri-maddi aktivin tanınmasının dayandırılmasından irəli gələn gəlir və ya zərərlər xaric etmədən əldə edilən xalis mədaxil ilə aktivin balans dəyəri arasındakı fərq kimi ölçülür və aktiv uçotdan çıxarıldığı zaman mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında əks olunur.

### Tullantıların daşınması üzrə təxirə salınmış xərclər

Çöküntülərin və dağ-mədən işləri ilə əlaqədar digər istehsalat tullantılarının daşınması mədənin ilkin işlənməsi zamanı mineral filiz yatağına çıxış əldə etmək üçün tələb olunur. Bu fəaliyyətə birbaşa aid edilən xərci, mədən kommersiya hasilatına hazır hesab edilənədək, istehsal mədən aktivləri daxilində tam olaraq kapitallaşdırılır. Bu, investisiyadan yaranan pul vəsaitlərinin hərəkəti daxilində genişlənən əsaslı məsrəflər kimi təsnif edilir.

Mədən kommersiya hasilatına hazır olduqdan sonra istehsalat tullantılarının daşınması süxurların kəsilməsi hesab olunur.

İstehsalat tullantılarının daşınması cari dövrdə hasil edilən filizə çıxışı asanlaşdırdıqda, istehsalat tullantılarının hasilat mərhələsində daşınması üzrə xərclər 2 saylı *“Mal-material ehtiyatları”* adlı MUBS-a uyğun olaraq Cəmiyyətin mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında əməliyyat məsrəfləri kimi göstərilir.

Tullantıların hasilat mərhələsində daşınması ehtiyatların artması və filizə çıxışın asanlaşması ilə nəticələnəndə gələcək dövrlərdə istehsalat tullantılarının daşınması ilə əlaqəli xərclər iki element arasında bölüşdürülür.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Tullantıların daşınması üzrə təxirə salınmış xərclər (davamı)

Gələcək filiz hasilatına fayda gətirən hissə süxurların kəsilməsi və işlənmə üzrə məsrəflər daxilində kapitallaşdırılır. Kapitallaşdırılacaq məbləğ xüsusi olaraq müəyyən olunmayanda bu, cari istehsalat tullantılarının həcminin bütöv yatağın müəyyən edilmiş komponenti üçün gözlənilən həcm ilə müqayisə edilərək müəyyən edilir. Komponentlər mədənin xidmət müddəti planına istinad edilərək müəyyən edilən bütöv yatağın xüsusi həcmləridir.

Müəyyən hallarda, hasilatın olmaması və ya az həcmdə olmasına baxmayaraq, böyük həcmli istehsalat tullantılarının daşınması baş verə bilər.

İstehsalat tullantılarının daşınması ilə bağlı kapitallaşdırılmış bütün məbləğlər istehsal vahidi metodu ilə onların aid olduğu yatağın komponentinin filiz ehtiyatlarına əsasən amortizasiya olunur.

Mədənin xidmət müddəti planına edilən dəyişikliklərin istehsalat tullantılarının daşınması və ya komponent üçün qalıq ehtiyatları üzrə gözlənilən xərclərə təsiri gələcək dövrlərə tətbiq edilməklə proqnozda dəyişiklik kimi əks etdirilir.

### Əlaqəli tərəflərlə əməliyyatlar

Hazırkı maliyyə hesabatlarının məqsədləri üçün tərəflər bu halda əlaqəli hesab edilir ki, bir tərəf digər tərəfə nəzarət etmək və ya maliyyə və ya əməliyyat qərarlarının qəbul edilməsində mühüm təsir göstərmək iqtidarında olsun. Hər bir potensial əlaqəli tərəf münasibətlərini nəzərdən keçirdikdə, diqqət bu münasibətlərin yalnız hüquqi formasına deyil, mahiyyətinə də yönəldilməlidir.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

### Ehtiyatlar

*Ümumi*

Cəmiyyət keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, bu öhdəliklərin yerinə yetirilməsi üçün iqtisadi resursların sərf olunmasının ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ehtimal edilə bildikdə ehtiyatlar uçota alınır. Pulun vaxt dəyərinin təsiri önəmlidirsə, ehtiyatlar münasib olduqda öhdəliyə xas olan riskləri əks etdirən cari vergidən əvvəlki dərəcəni istifadə etməklə diskont edilir. Diskontlaşdıma istifadə edildəndə, vaxt keçməsinə görə ehtiyatın artması maliyyə xərci kimi tanınır.

*Bərpa üçün ehtiyat*

Cəmiyyət mədənin işlənməsi və müvafiq obyektlərin quraşdırılması və istifadəsi zamanı mədənlərdə və əlaqəli hasilat obyektlərində aparılacaq bərpa işləri üzrə gələcək xərclər üçün diskontlaşdırılmış əsasla tam ehtiyat ayırır. Bərpa üçün ehtiyat 2028-ci ildən 2030-cu ilədək olan dövr ərzində (bu dövrdə istehsal mədən obyektlərinin fəaliyyəti dayandırılması gözlənilir) çəkilməsi gözlənilən mədən sahələri ilə bağlı bərpa işləri üzrə xərclərin cari dəyərini ifadə edir. Bu ehtiyatlar Cəmiyyətin daxili qiymətləndirmələrinə əsaslanaraq yaradılmışdır.

Öhdəlik əsasən mədən aktivləri quraşdırılanda və ya hasilat sahəsində mədən sahəsinə və ya mühitə ziyan vurulanda yaranır. Öhdəlik ilkin olaraq tanındıqda, təxmin edilən xərclərin cari dəyəri əlaqəli mədən aktivlərinin balans dəyərini artırmaqla bu şərtlə kapitallaşdırılır ki, həmin xərclər adi olduğu filizin hasilatından öncə çəkilsin. Vaxt keçdikcə diskontlaşdırılmış öhdəlik cari bazar qiymətləndirilmələrini və öhdəlik üzrə xüsusi riskləri əks etdirən diskont dərəcələri əsasında cari dəyərdə dəyişikliyin edilməsi üçün artırılır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Ehtiyatlar (davamı)

*Bərpa üçün ehtiyat (davamı)*

Diskontlaşdırılmış dəyərə müntəzəm düzəliş Cəmiyyətin mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında maliyyə məsrəfləri kimi tanınır. Əlavə ziyan və ya bərpa işləri üzrə xərclərdə dəyişikliklər yarandığı zaman bərpa öhdəliyi və müvafiq aktivlər üzrə əlavələr və ya xərclər kimi tanınacaq. Bərpa işləri üzrə öhdəlikdə azalmalar və müvafiq olaraq bərpa olunan aktivdən tutulmalar aktivin balans dəyərindən artıq ola bilməz. Artıq olarsa, balans dəyərini üstələyən məbləğ dərhal Cəmiyyətin mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında əks etdirilir.

Qiymətləndirmədə dəyişiklik bərpa işləri üzrə öhdəlikdə artım və müvafiq olaraq aktivin balans dəyərinə əlavələr ilə nəticələndikdə, Cəmiyyət bütövlükdə aktivin dəyərsizləşməsi əlamətinin olub-olmamasını nəzərdən keçirməli və 36 saylı MUBS-a uyğun olaraq dəyərsizləşmə testi aparmalıdır. İşlənmiş mədənlər üzrə bərpa üçün ehtiyatı çıxmaqla yenidən baxılmış mədən aktivləri bərpa edilən dəyərdən artıq olduqda, artımın bu hissəsi birbaşa xərclərə aid edilir.

Bağlı sahələr üçün, təxmin edilmiş xərclərdə dəyişikliklər dərhal Cəmiyyətin mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında tanınır.

### Mal-material ehtiyatları

Hazır məhsullar, Topa aşındırmada olan filiz və filiz anbarında olan filiz daha aşağı dəyər və ya xalis mümkün satış dəyəri ilə ölçülür, hesablanır və qiymətləndirilir. Xalis mümkün satış dəyəri məhsul emal edilib satılanda müəssisənin reallaşdırılmasını gözlədiyi məhsulun təxmin edilmiş gələcək satış qiymətindən məhsulu tamamlayıb satışa çıxarmaq üçün təxmin edilən xərcləri çıxmaqla müəyyən edilir. Pulların vaxt dəyəri əhəmiyyətli olanda həmin gələcək qiymətlər və tamamlama üçün xərclər diskont edilir.

Hazır məhsullar emal edilmiş və əyarı müəyyən edilmiş, beynəlxalq külçə bazarlarında satış üçün hazır olan qiymətli ərintilərdən ibarətdir. Hazır məhsullar daha aşağı orta dəyər və xalis mümkün satış dəyəri ilə ölçülür. Hazır məhsullar üzrə xərclər birbaşa istehsal xərclərindən (dağ-mədən işləri, dağıtma və emal və sahə üzə inzibati xərclər) və bölüşdürülmüş dolayı xərclərdən (istehsal mədən aktivlərinin köhnəlməsi, tükənməsi və amortizasiyası) ibarətdir.

Topa aşındırmada olan filiz frezləmə və ya emal əməliyyatları aparılan obyektlərdə əməliyyat sxeminə salınmış materiallardan və emal ediləcək ərintilərdən ibarətdir və daha aşağı orta dəyər və xalis mümkün satış dəyəri ilə ölçülür. İstehsal prosesində iştirak edən mal-material ehtiyatları üzrə xərclər birbaşa hasilat xərclərindən ibarətdir (dağ-mədən, partlatma və nəql etmə xərcləri daxil olmaqla).

Filiz anbarında olan filiz ehtiyatda saxlanılan filizdən ibarətdir və daha aşağı orta dəyər və xalis mümkün satış dəyəri ilə ölçülür. Filiz anbarında olan filiz üzrə xərclər birbaşa hasilat xərclərindən ibarətdir (dağ-mədən, partlatma və nəql etmə xərcləri daxil olmaqla).

Filiz ehtiyatlarının hesabat tarixindən 12 ay sonra emal edilməsi gözlənilməyəndə, onlar uzunmüddətli aktivlərə aid edilir və xalis mümkün satış dəyəri diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti metodu ilə hesablanır.

Mal-material ehtiyatları üzrə xərclər satılmış qızıl unsiyaları əsasında əməliyyatlara aid edilir. Cəmiyyət mütəmadi şəkildə faktiki qızıl hasilatı və əməliyyat planlarına əsasən əməliyyatlara və mal-materiallar ehtiyatlarının balans dəyərlərinə aid edilən xərclərin müəyyən edilməsində istifadə edilmiş təxminləri qiymətləndirir və dəqiqləşdirir.

Materiallar və ehtiyat hissələri daha aşağı orta dəyər və əvəzetmə dəyəri və ehtiyac yarandıqda aşınma ehtiyatını çıxmaqla qiymətləndirilən yanacaq, kimyəvi vasitələr, reagentlər, ehtiyat hissələri və xammal kimi əməliyyatlarda istifadə olunan istehlak materiallarından ibarətdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Əhəmiyyətli uçot mülahizələri

MHBS əsasında maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən mülahizələrin işlədilməsini tələb edir, bunlar isə Cəmiyyətin maliyyə hesabatlarının tarixinə hesabatlara daxil edilən aktivlərin, öhdəliklərin və potensial öhdəliklərin, eləcə də hesabat dövrü ərzindəki gəlirlərin və xərclərin məbləğlərinə öz təsirini göstərir. Xüsusilə, rəhbərlik tərəfindən maliyyə hesabatlarının hazırlanmasında nəzərə alındığı əhəmiyyətli mülahizələr barədə aşağıda məlumat verilir.

*Kəşfiyyat və qiymətləndirmə xərcləri*

Cəmiyyətin uçot siyasətinin kəşfiyyat və qiymətləndirmə xərclərinə tətbiqi gələcək istismardan iqtisadi səmərələrin əldə olunması ehtimalının olub-olmadığını müəyyənləşdirmək üçün mülahizə işlədilməsini tələb edir. Bu təxirə salma siyasəti rəhbərlikdən gələcək hadisələr və ya hallar, xüsusilə də iqtisadi cəhətdən həyata keçirilə bilən hasilat əməliyyatının aparıla bilib-bilməməsi ilə bağlı müəyyən mülahizələrin işlədilməsini tələb edir. Yeni məlumatlar əldə edildiyi təqdirdə işlədilən mülahizələr dəyişə bilər. Əgər xərclər kapitallaşdırıldıqdan sonra, xərclərin bərpasının mümkün olmadığını göstərən məlumat əldə edilərsə, kapitallaşdırılmış məbləğ yeni məlumatın əldə olunduğu dövrdə mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatında silinir.

*Təxirə salınmış vergi aktivlərinin bərpası*

Təxirə salınmış vergi aktivlərinin Cəmiyyətin maliyyə vəziyyəti haqqında hesabatda tanınıb-tanınmadığını müəyyənləşdirməkdə mülahizə tələb olunur. Təxirə salınmış vergi aktivləri, istifadə edilməmiş vergi zərərlərindən əmələ gələnlər də daxil olmaqla, rəhbərlikdən tanınmış təxirə salınmış vergi aktivlərini istifadə etmək üçün gələcək dövrlərdə Cəmiyyətin vergi tutulan mənfəət əldə edəcəyinin qiymətləndirilməsini tələb edir. Gələcəkdə vergiyə cəlb olunan gəlirlərin qiymətləndirilməsi əməliyyatlardan gözlənilən pul vəsaitlərinin hərəkəti və Azərbaycan yurisdiksiyasında qüvvədə olan mövcud vergi qanunvericiliyinin tətbiqinə əsaslanır. Gələcək pul vəsaitlərinin hərəkətinin və vergi tutulan gəlirin təxminlərdən əhəmiyyətli dərəcədə fərqləndiyi hallarda, Cəmiyyətin hesabat tarixində qeydə alınmış xalis təxirə salınmış vergi aktivlərini realizasiya edə bilməsi qabiliyyətinə təsir göstərilə bilər.

*Hasilatın başlanma tarixi*

Cəmiyyət hər bir işlənən/tamamlanmamış mədənin mərhələsini onun nə vaxt hasilat mərhələsinə keçəcəyini təyin etmək üçün qiymətləndirir. Bu, mədən əsasən tamamlanmış və təyinatı üzrə istifadə olunması üçün hazır olduğu zaman baş verir. Başlanma tarixinin qiymətləndirilməsi üçün istifadə edilən meyarlar hər bir işlənən/tamamlanmamış mədən layihəsinin spesifik xüsusiyyəti, məsələn layihənin mürəkkəbliyi və onun yerləşmə ərazisi əsasında müəyyənləşir. Cəmiyyət hasilat mərhələsinin nə vaxt başlanmış hesab ediləcəyini qiymətləndirmək məqsədilə, müxtəlif münasib meyarları nəzərdən keçirir. Bu mərhələdə, bütün əlaqəli məbləğlər "Tikilməkdə olan aktivlər"dən "Əmlak, tikili və avadanlıqlar"a yenidən təsnif edilir. Hasilatın başlanma tarixini müəyyən etmək üçün istifadə edilən bəzi meyarlar aşağıdakıları daxil edir, lakin onlarla məhdudlaşmır:

- İlkin tikinti dəyərinin təxmini ilə müqayisə edilərək çəkilən əsaslı məsrəflərin səviyyəsi;
- Mədən obyekti və avadanlığın məntiqi müddət ərzində sınaqdan keçirilməsinin tamamlanması;
- Satıla bilən formada (spesifikasiyalara uyğun) metal istehsal etmək qabiliyyəti;
- Davamlı şəkildə metal istehsalını aparmaq qabiliyyəti.

Mədənin işlənməsi layihəsi hasilat mərhələsinə keçəndə, mədənin işlənməsi ilə bağlı müəyyən xərclərin kapitallaşdırılması dayandırılır və mədən aktivlərinə əlavələr və ya bunların təkmilləşdirilməsi, yeraltı mədənin işlənməsi və ya istehsal ehtiyatlarının işlənməsi ilə bağlı kapitallaşdırılmaya uyğun olan xərclər istisna olmaqla, xərclər mal-material ehtiyatlarının dəyərinin bir hissəsi hesab edilir və ya xərclərə silinir. Bundan əlavə, bu mərhələdə köhnəlmə/amortizasiyanın hesablanması başlayır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Əhəmiyyətli uçot təxminləri

MHBS-yə uyğun maliyyə hesabatlarının hazırlanması rəhbərlikdən təxminlərin işlədilməsini tələb edir, bunlar isə Cəmiyyətin maliyyə hesabatlarının tarixinə hesabatlara daxil edilən aktivlərin, öhdəliklərin və potensial öhdəliklərin, eləcə də hesabat dövrü ərzindəki gəlirlərin və xərclərin məbləğlərinə öz təsirini göstərir. Təxminlər davamlı şəkildə qiymətləndirilir və rəhbərliyin təcrübəsinə və digər amillərə, o cümlədən, cari şəraitdə məqsədəuyğun hesab edilən gələcək hadisələrin gözləntilərinə əsaslanır. Lakin, faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Xüsusilə, rəhbərlik Cəmiyyətin maliyyə hesabatlarını hazırlayarkən nəzərdən keçirdiyi təxminlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənlik sahələri haqqında məlumat aşağıda təqdim edilir.

*Filiz ehtiyatı və resurslar*

Filiz ehtiyatı Cəmiyyətin mədən obyektlərindən iqtisadi və hüquqi cəhətdən hasil edilə bilən filiz həcminin qiymətləndirilməsidir. Cəmiyyət filiz və mineral ehtiyatlarını müvafiq ixtisaslı şəxslər tərəfindən verilən filiz yatağının ölçüsü, dərinliyi və forması ilə bağlı geoloji məlumata əsaslanaraq hesablayır. Bu cür məlumatın şərh edilməsi zamanı mürəkkəb geoloji rəylər tələb olunur. Bərpa edilə bilən ehtiyatların hesablanması xarici valyuta məzənnəsi üzrə proqnozlar, əmtəə qiymətləri, gələcək kapital tələbləri və istehsal dəyəri ilə yanaşı filiz yatağının ölçüsü və keyfiyyətinin qiymətləndirilməsi zamanı verilən geoloji fərziyyələr və rəylər əsasında aparılır. Ehtiyat və resurslar üzrə proqnozlarda dəyişikliklər kəşfiyyatın və qiymətləndirmə aktivlərinin balans dəyərinə, qeyri-maddi aktivlərə, əmlak, tikili və avadanlığa, bərpa işləri üçün ehtiyata və köhnəlmə, tükənmə və amortizasiya xərclərinə təsir göstərə bilər.

*Mədənin bərpası üçün ehtiyat*

Bərpa işləri üzrə yekun xərclər müəyyən deyil və bu xərclərin qiymətləndirilməsi bərpa işlərinin həcmi və xərclərinin qiymətləndirilməsi, texnoloji dəyişikliklər, normativ dəyişikliklər, inflyasiya dərəcələri ilə müqayisədə maya dəyərinin artması və diskont dərəcələrində dəyişikliklər də daxil olmaqla bir sıra faktordan asılı olaraq dəyişə bilər. Bu qeyri-müəyyənliklər gələcək faktiki məsrəflərin hal-hazırda ayrılmış məbləğlərdən fərqlənməsi ilə nəticələnə bilər. Beləliklə, mədənin bərpası üçün ehtiyat müəyyən edilərkən əhəmiyyətli təxmin və fərziyyələr işlədilir. Bu ehtiyat subyektiv olduğuna görə, bu cür xərclərin həm məbləği, həm də ehtimal edildiyi çəkilmə vaxtı qeyri-müəyyəndir.

31 dekabr 2017-ci il tarixinə qiymətləndirilmiş bərpa üçün ehtiyat 2,561,269 ABŞ dolları (2016-cı il: 1,776,805 ABŞ dolları) təşkil etmişdir. Bu şərtlərdə hər hansı bir dəyişiklik Cəmiyyət tərəfindən qeydə alınmış ehtiyatlarda düzəlişlər ilə nəticələnə bilər. Hesabat tarixinə ehtiyat tələb olunan gələcək bərpa xərclərinin cari dəyəri üzrə rəhbərliyin ən yaxşı qiymətləndirməsini əks etdirir.

31 dekabr 2017-ci il tarixinə ehtiyatın hesablanmasında istifadə edilən diskont dərəcəsi 5.05% (2016-cı il: 4.88%) olmuşdur.

Hesablamada istifadə edilən təxmini diskont dərəcəsi rəhbərliyin təxminlərindən 1% çox/az olsaydı, ehtiyatın balans dəyəri, müvafiq olaraq, 276,905 ABŞ dolları az / 313,797 ABŞ dolları çox (2016-cı il: 207,368 ABŞ dolları az / 237,288 ABŞ dolları çox) olardı.

*Mal-material ehtiyatları*

Hər hesabat tarixində xalis mümkün satış dəyərinin testləri aparılır və məhsul emal edilib satılanda müəssisənin reallaşdırılmasını gözlədiyi məhsulun təxmin edilmiş gələcək satış qiymətindən məhsulu tamamlayıb satışa çıxarmaq üçün təxmin edilən xərcləri çıxmaqla müəyyən edilir. Pulların vaxt dəyəri əhəmiyyətli olanda həmin gələcək qiymətlər və tamamlama üçün xərclər diskont edilir.

Fond ehtiyatları əlavə edilmiş və ehtiyat fondundan çıxarılmış tonların sayını təxmin etməklə ölçülür, qızıl tərkibli unsiyaların sayı əyara dair məlumata əsaslanır və təxmin edilən bərpa faizi gözlənilən emal üsuluna əsaslanır. Fond ehtiyatlarının tonnajı dövri icmallarla təsdiqlənir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Əhəmiyyətli uçot təxminləri (davamı)

*Əmlak, tikili və avadanlıqların istifadə müddəti*

Cəmiyyət əmlak, tikili və avadanlıqların qalan istifadə müddətini, ən azından, hər maliyyə ilinin sonunda qiymətləndirir. Qiymətləndirmələr əvvəlki proqnozlardan fərqlənirsə, dəyişikliklər 8 saylı *“Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər”* adlı MUBS-a uyğun olaraq uçota alınır.

*Qeyri-maddi və maddi aktivlərin dəyərsizləşməsi*

Mühasibat uçotu siyasətinə uyğun olaraq Cəmiyyət hər bir hesabat tarixində maddi və qeyri-maddi aktivlərin dəyərsizləşə biləcəyini göstərən hər hansı əlamətin olub-olmadığını qiymətləndirir. Əgər hər hansı əlamət olarsa və ya aktiv üçün dəyərsizləşmə testinin aparılması tələb olunursa, Cəmiyyət aktivin bərpa edilə bilən məbləğinin rəsmi qiymətləndirməsini aparır. Aktivin bərpa edilə bilən dəyəri aktivin satış məsrəfləri çıxılmaqla ədalətli dəyəri (SMÇƏD) və aktivin istifadə dəyərindən (AİD) daha yüksək olanıdır.

Hər hansı aktiv digər aktiv və ya aktivlər qrupu tərəfindən yaradılan pul vəsaitlərinin mədaxilindən əhəmiyyətli dərəcədə asılı olmayan pul vəsaitlərinin mədaxilini yaradırsa, həmin aktiv üçün aktivin bərpa edilə bilən məbləği fərdi olaraq müəyyən edilir. Belə olan halda, dəyərsiləşmə məqsədləri üçün fərdi aktivlər ya pul vəsaitlərini yaradan vahidlərə (PVYV) qruplaşdırılır. Belə PVYV-lər digər aktivlərdən və ya digər aktivlər qruplarından pul vəsaitlərinin hərəkətindən əsas etibarı ilə müstəqil olan, ayrılıqda müəyyən edilən bilən pul mədaxillərinin mövcud olduğu ən aşağı səviyyəni təmsil edir. Bu adətən Cəmiyyət tərəfindən qeyri-maliyyə aktivlərinin coğrafi və ya lisenziya əsasında qiymətləndirilməsi ilə nəticələnir.

Cəmiyyətin əməliyyatlarının xüsusiyyətini nəzərə alaraq, potensial alıcılarla danışılqlar aparıldığı və ya oxşar əməliyyalar həyata keçirildiyi hallar istisna olmaqla, aktivin ədalətli dəyəri haqqında məlumatın əldə edilməsi adətən çətin olur. Bundan irəli gələrək, hər bir PVYV üçün SMÇƏD, PVYV-nin genişləndirilməsi layihələri və sonradan satışı da daxil olmaqla, PVYV-nin davam edən istifadəsindən əldə edilməsi gözlənilən diskont edilmiş gələcək qiymətləndirilmiş pul vəsaitlərinin hərəkəti əsasında (real qiymətlə ifadə edilmiş), bazara əsaslanan əmtəə qiyməti, qiymətləndirilmiş bərpa edilə bilən mineralların qiymətləndirilmiş həcmi, hasilat səviyyələri, əməliyyat xərcləri və kapital tələbləri istifadə etməklə, rəhbərliyin təsdiq etdiyi maliyyə büdcələri və son mədənin istismar planlarına əsasən qiymətləndirilir.

Bu pul vəsaitlərinin hərəkəti pulların vaxt dəyərini və PVYV üçün səciyyəvi olan riskləri əks etdirən real vergidən sonrakı diskont dərəcəsini istifadə etməklə diskont edilmişdir.

Bərpa edilə bilən mineralların həcmi, hasilat səviyyələri, əməliyyat xərcləri və kapital tələblərinin qiymətəndirmələri mədənin istismar planları, maliyyə büdcələri və PVYV üçün xüsusi tədqiqat da daxil olmaqla planlaşdırma prosesindən irəli gəlir.

Hər bir PVYV üçün SMÇƏD-in müəyyən edilməsi Səviyyə 3 ədalətli dəyər qiymətləndirmələri hesab edilir, çünki bunlar müşahidə edilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatları daxil edən qiymətləndirmə üsullarından əldə edilir. Cəmiyyət bazar iştirakçılarının qəbul etdiyi yanaşmaya uyğun qiymətlədirmə yanaşmasını və ilkin məlumatları nəzərdən keçirir.

Qudvil istisna olmaqla aktivlər üçün əvvəllər tanınmış dəyərsizləşmə zərərlərinin artıq mövcud olmadığını və ya azaldığını göstərən əlamətlərin mövcud olub-olmadığını müəyyən etmək üçün hər bir hesabat tarixində qiymətləndirmə aparılır. Belə əlamət mövcud olarsa, Cəmiyyət aktivin və ya PVYV-in bərpa edilə bilən məbləğini təxmin edir. Əvvəllər tanınmış dəyərsizləşmə zərərin effekti yalnız sonuncu dəyərsizləşmə zərəri tanındığı vaxtdan etibarən aktivin bərpa edilə bilən məbləğinin müəyyən edilməsi üçün istifadə edilmiş fərziyyələrdə hər hansı dəyişiklik olduğu halda geri qaytarılır. Zərərin effektinin geri qaytarılması aktivin və ya PVYV-in balans dəyərinin onun bərpa edilə bilən məbləğindən və ya əvvəlki illərdə aktiv üçün heç bir dəyərsizləşmə zərəri tanınmamış olduğu halda, amortizasiya çıxılmaqla, müəyyən ediləcək balans dəyərindən çox olmamasını təmin edəcək şəkildə məhdudlaşdırılır. Zərərin effektinin belə geri qaytarılması ayrıca tanınır və mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda əks etdirilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

**Dəyərsizləşmənin icmalı**

Rəhbərlik 31 dekabr 2017 və 2016-cı il tarixlərinə dəyərsizləşmə əlamətlərinin mövcud olması qənaətinə gəlmiş və həmin tarixlərdə dəyərsizləşmə təhlilini aparmışdır. Dəyərsizləşmənin təhlili nəticəsində 2016-cı ildə Çovdar Sulfid yatağında kəşfiyyat işlərinin aparılması hüququ ilə bağlı 21,096,737 ABŞ dolları məbləğində cəmi dəyərsizləşmə zərəri tanınmışdır. Dəyərsizləşmə yoxlamasının aparılmasına, aktivlər qrupunun alınması tarixindən, 4 Avqust 2016-cı il, 31 dekabr 2016-cı il tarixinə olan dövr ərzində qızılın qiymətində olan azalma təkan vermişdir.

31 dekabr 2017-ci il tarixində başa çatan il ərzində Cəmiyyət 14,081,026 ABŞ dolları məbləğində dəyərsizləşmə effektinin geri qaytarılmasını tanımışdır. Zərərin effektinin geri qaytarılması Çovdar Sulfid kəşfiyyat hüququ üzrə əvvəl tanınmış dəyərsizləşmə zərərinə aid olmuşdur və dəyərsizləşmə zərəri tanındığı andan dağ-mədən işlərinin aparılması hüququnu müəyyən etmək üçün istifadə edilən qiymətləndirmələrdə, xüsusilə də qızılın qiymətinin uzunmüddətli qiymətləndirmələrində müsbət dəyişiklikdən irəli gəlmişdir.

31 dekabr 2017-ci və 2016-cı il tarixlərində başa çatan illər üzrə Çovdar Oksid PVYV və Filizçay PVYV üzrə dəyərsizləşmə təhlili ilə əlaqədar dəyərsizləşmə zərərləri və ya zərərin effektinin geri qaytarılması tanınmamışdır. Çovdar Oksid, Çovdar Sulfid və Filizçay PVYV-nin bərpa edilə bilən məbləği rəhbərlik tərəfindən SMÇƏD-in qiymətləndirməsinə əsaslanmışdır.

SMÇƏD-in müəyyən edilməsi daha çox aşağıdakı əsas fərziyyələrə həssasdır:

- Hasilatın həcmi;
- Əmtəə qiymətləri;
- Diskont dərəcələri.

**Hasilat həcmi:** SMÇƏD hesablanarkən pul vəsaitlərinin hərəkəti modellərinə daxil olan qiymətləndirilmiş hasilat həcmləri mədənin ətraflı uzunmüddətli xidmət müddəti planına əsaslanır və rəhbərlik tərəfindən uzunmüddətli planlaşdırma prosesi çərçivəsində razılaşdırılmış mədənlərin inkişafı planlarını nəzərə alır.

Hasilat həcmləri bərpa edilə bilən kəmiyyət, hasilat profili, ehtiyatların hasil edilməsi üçün lazimi olan infrastrukturun inkişafının dəyəri, hasilat xərcləri, dağ-mədən işlərinin aparılması üzrə hüquqların müqavilədə nəzərdə tutulan müddəti və hasil edilmiş məhsulların satış qiyməti kimi bir sıra dəyişən göstəricilərdən asılıdır. Hər bir hasilat yatağının xüsusi ehtiyat xüsusiyyətlərinə və iqtisadi şəraitə malik olduğu üçün, mədənlərin pul vəsaitlərinin hərəkəti müvafiq fərdi iqtisadi modellər və rəhbərlik tərəfindən müəyyən edilmiş əsas fərziyyələrdən istifadə edərək hesablanır. İstifadə edilmiş istehsal profilləri, təsdiq edilmiş və ehtimal olunan ehtiyatların qiymətləndirilməsi, resursların qiymətləndirilməsi və bəzi hallarda genişləndirmə layihələri daxil olmaqla, Cəmiyyətin prosesinin bir hissəsi kimi təsdiq edilmiş ehtiyatlar və resursların həcminə uyğun olmuşdur. Bunlar sonra bir bazar iştirakçısının qiymətləndirmələrinə uyğun olduğundan əmin olmaq üçün qiymətləndirilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Əhəmiyyətli uçot təxminləri (davamı)

**Əmtəə qiymətləri:** Proqnozlaşdırılmış qiymətli metal və əmtəə qiymətləri rəhbərliyin qiymətməndirmələrinə əsaslanır. Pul vəsaitlərinin hərəkəti modellərində istifadə edilmiş qiymətli metalların hesablanmış uzunmüddətli qiymətləri aşağıda təqdim edilir:

| | Qızıl $/un | Gümüş $/un | Mis $/lb. | Qurğuşun $/lb. | Sink $/lb. |
|---|---|---|---|---|---|
| 2017 | 1,302.50 | 16.91 | 3.09 | 1.12 | 1.43 |
| 2016 | 1,159.10 | 16.24 | 2.53 | 1.08 | 1.29 |

**Diskont dərəcələri:** SMÇƏD-nin hesablanması zamanı, real göstəricilərlə ifadə edilmiş vergidən sonrakı pul vəsaitlərinin hərəkətinə 12%-lik vergidən sonrakı diskont dərəcəsi tətbiq edilmişdir. Bu diskont dərəcəsi həm kapitalı, həm də borcu nəzərə alan və daha sonra digər bazar iştirakçılarının aktivlərin qiymətləndirilməsi zamanı istifadə edəcək diskont dərəcəsinin Cəmiyyət tərəfindən qiymətləndirilməsini əks etdirmək məqsədilə düzəliş edilən Cəmiyyətin vergidən sonrakı hesablanmış kapitalının orta qiymətindən (“KOQ”) irəli gəlir. Pul vəsaitlərinin hərəkəti modelində istifadə edilən qiymətləndirilmiş KOQ rəhbərliyin təxminlərindən 1% artıq olsaydı, il ərzində Çovdar Sulfid kəşfiyyat işlərinin aparılması hüququ ilə əlaqədar 2,644,875 ABŞ dolları məbləğində daha az dəyərsizləşmə zərərinin effektinin geri qaytarılması tanınardı (2016-cı il: 1,523,728 ABŞ dolları məbləğində əlavə dəyərsizləşmə zərəri). Pul vəsaitlərinin hərəkəti modelində istifadə edilən qiymətləndirilmiş KOQ rəhbərliyin təxminlərindən 1% artıq olsaydı, 2017-ci və 2016-cı illərdə Çovdar Oksid və Filizçay PVYV-lərlə əlaqədar dəyərsizləşmə zərəri (zərərin effektivinin geri qaytarılması) tanınmazdı.

**Həssaslığın analizi:** 2016-cı ildə dəyərsizləşmiş və 2017-cı ildə qismən zərər effekti geri qaytarılmış Çovdar Sulfid yatağında kəşfiyyat işlərinin aparılması hüquqları istisna olmaqla, rəhbərlik, 2017-ci və 2016-cı illər ərzində dəyərsizləşməmiş Çovdar Oksid və Filizçay PVYV-in dəyərsizləşməsinə gətirib çıxara biləcək yuxarıdakı fərziyyələrin hər hansı birində dəyişikliklərin baş verəcəyini ehtimal etməyə əsas olmadığı qənaətindədir. 2016-cı ildə dəyərsizləşmiş Çovdar Sulfid yatağında kəşfiyyat işlərinin aparılması hüquqları ilə əlaqədar yuxarıdakı fərziyyələrdə hər hansı bir dəyişikliyin baş verməsi ya əlavə dəyərsizləşmə ilə nəticələnəcək, ya da dəyərsizləşmə zərərinin geri qaytarılmasının azalmasına gətirib çıxaracaqdır. Diskont dərəcələrində mümkün dəyişikliyin nəticəsi yuxarıda hesablanmışdır.

### Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər

Buraxılmış, lakin Cəmiyyətin maliyyə hesabatları buraxıldığı tarixə hələ qüvvəyə minməmiş standartlar aşağıda göstərilir. Təqdim edilmiş standart və şərhlər Cəmiyyət tərəfindən gələcəkdə tətbiq edilərsə, onun fəaliyyətinə, maliyyə vəziyyətinə və ya əməliyyatlarının nəticələrinə təsir göstərməsi ehtimal edilir. Cəmiyyət həmin standartlar qüvvəyə mindikdə onları, əgər Cəmiyyətə tətbiq oluna bilərsə, qəbul etmək niyyətindədir.

*9 saylı MHBS “Maliyyə alətləri”*

2014-cü ilin iyul ayında MUBSK 9 saylı *“Maliyyə alətləri”* adlı MHBS-nin yekun versiyasını buraxmışdır. Bu versiya maliyyə alətləri layihələrinin bütün mərhələlərini əks etdirir və 39 saylı *“Maliyyə alətləri: Tanıma və Ölçmə”* adlı MUBS-u və 9 saylı MHBS-nin bütün əvvəlki versiyalarını əvəz edir. 9 saylı MHBS təsnifləşdirmə və ölçmə, dəyərsizləşmə və hedcinq uçotuna dair yeni tələbləri özündə ehtiva edir. Hedcinq uçotu istisna olmaqla, retrospektiv tətbiq tələb edilir, lakin müqayisəli məlumatın təqdim edilməsi məcburi deyil. Hedcinq uçotuna dair tələblər ümumiyyətlə perspektiv qaydada tətbiq edilir, lakin bəzi məhdud istisnalar da mövcuddur.

Cəmiyyət tələb edilən qüvvəyə minmə tarixində 1 yanvar 2018-ci il tarixinə açılış bölüşdürülməmiş mənfəəti tanımaqla məcmu keçid təsirini tanımaqla yeni standartı qəbul etməyi planlaşdırır və müqayisəli məlumatı yenidən təqdim etməyəcək. Cəmiyyət 9 saylı MHBS-nin tələb etdiyi dəyişikliklərin təsirini qiymətləndirməkdədir, lakin əhəmiyyətli təsirin göstərilməsi gözlənilmir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

### Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər (davamı)

*15 saylı MHBS “Müştərilərlə müqavilələrdən gəlirlər”*

15 saylı MHBS 2014-cü ilin may ayında buraxılmış və 2016-cı ilin aprel ayında düzəlişlər edilmiş müştərilərlə müqavilələrdən irəli gələn gəlirləri uçota almaq üçün 5 mərhələli modeli tətbiq edir. 15 saylı MHBS-yə görə gəlirlər müəssisənin müştəriyə göndərdiyi mallar və ya xidmətlər əvəzində alınması gözlənilən vəsaiti əks etdirən məbləğdə tanınır. Gəlirlər üzrə yeni standart MHBS-nin gəlirlərin tanınması üzrə bütün cari tələblərini əvəz edir. Standart 1 yanvar 2018-ci il tarixində başlayan və bu tarixdən sonrakı illik dövrlərə retrospektiv qaydada tam və ya düzəlişlər edilmiş şəkildə tətbiq edilməlidir. Erkən tətbiqetməyə icazə verilir.

Cəmiyyət düzəlişlər edilmiş retrospektiv metod işlətməklə yeni standartı tələb edilən qüvvəyə minmə tarixində qəbul etməyi planlaşdırır. Cəmiyyət 15 saylı MHBS-nin tətbiqinin və tələb olunan dəyişikliklərin təsirini qiymətləndirmiş və bunların əhəmiyyətli olmayacağını hesab edir.

Cəmiyyətin yeganə əhəmiyyətli gəlirlər mənbəyi qızıl və gümüş külçələrinin qızıl emalçısına satılmasıdır. Hər iki halda satışlar alıcı malları fiziki baxımdan öz sərəncamına qəbul edəndə tanınır və metalın satış tarixində spot qiyməti ilə qiymətləndirilir.

*16 saylı MHBS İcarələr*

16 saylı MHBS 2016-cı ilin yanvar ayında buraxılmış və 17 saylı MUBS *“İcarələr”*, BMHŞK 4 *“Müqavilədə İcarə Əlamətlərinin Mövcudluğunun Müəyyən Edilməsi”* Şərhi, Standartların Şərhi Komitəsinin (“SŞK”) 15 saylı *“Əməliyyat icarələri-həvəsləndirmələr”* Standartı və SŞK *“İcarənin hüquqi forması da daxil olmaqla əməliyyatın mahiyyətinin qiymətləndirilməsi”* 27 saylı Standartını əvəz edir. 16 saylı MHBS icarələrin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir və icarəyə götürənlərdən bütün icarələri 17 saylı MUBS əsasında maliyyə icarələrinin uçotu ilə eyni qaydada yeganə balans hesabatı modeli əsasında uçota alınmasını tələb edir.

Standarta icarəyə götürənlər üçün iki tanıma istisnası daxildir − “azdəyərli” aktivlərin icarəsi (məsələn şəxsi kompüterlər) və qısamüddətli lizinqlər (məsələn, icarə müddəti 12 aydan çox olmayan icarələr). İcarə başladığı tarixdə icarəyə götürən icarə ödənişlərinin aparılması öhdəliyini (yəni icarə öhdəliyini) və icarə müddəti ərzində müvafiq aktivi istifadə etmək hüququndan ibarət olan aktivi (yəni istifadə hüququ aktivini) tanıyır. İcarəyə götürənlər icarə öhdəliyi üzrə faiz xərcini və istifadə hüququ aktivi üzrə köhnəlmə xərcini ayrıca tanımalıdırlar.

Bundan əlavə icarəyə götürənlər müəyyən hadisələr baş verəndə (məsələn, icarə müddəti dəyişəndə, bu ödənişləri müəyyən etmək üçün istifadə edilən əmsal və dərəcələrdə dəyişikliklər olduğuna görə gələcək icarə ödənişləri dəyişəndə) icarə öhdəliyini yenidən hesablamalıdırlar. İcarəyə götürən ümumiyyətlə icarə öhdəliyinin yenidən hesablanmasını istifadə hüququ aktivinə düzəliş kimi tanımalıdır.

16 saylı MHBS əsasında icarəyə verənin uçotu hazırda 17 saylı MUBS-a uyğun uçot qaydasından əhəmiyyətli fərqlənmir. İcarəyə verənlər bütün icarələri 17 saylı MUBS-da nəzərdə tutulan həmin təsnifata uyğun olaraq təsnif etməyə və iki icarə növünü: əməliyyat və maliyyə icarələrini ayırmağa davam edəcək.16 saylı MHBS həmçinin icarəyə götürənlərdən və icarəyə verənlərdən 17 saylı MUBS-un tələbləri ilə müqayisədə məlumatların daha geniş açıqlanmasını tələb edir.

16 saylı MHBS 1 yanvar 2019-cu il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir. Erkən tətbiqetməyə yalnız müəssisə 15 saylı MHBS-ni tətbiq etdikdən sonra yol verilir. İcarəyə götürən standartı ya tam retrospektiv, ya da düzəlişlər edilmiş retrospektiv qaydada tətbiq edə bilər. Standartın keçid müddəaları müəyyən azadetmələrə yol verir.

2018-ci ildə Cəmiyyət 16 saylı MHBS-nin tətbiqinin maliyyə hesabatlarına təsirini qiymətləndirməyə davam edəcək.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 2. Hesabatların tərtibatının əsasları və mühüm mühasibat uçotu prinsipləri (davamı)

**Buraxılmış, lakin hələ qüvvəyə minməmiş yeni standartlar və düzəlişlər (davamı)**

*7 saylı Pul vəsaitlərinin hərəkəti haqqında hesabat: “Məlumatların açıqlanması təşəbbüsü” adlı MUBS-a düzəlişlər*

Düzəlişlər tələb edir ki, müəssisə maliyyə fəaliyyətindən irəli gələn öhdəliklərdə dəyişikliklər, o cümlədən pul vəsaitlərinin hərəkətlərindən irəli gələn dəyişikliklər və qeyri-nağd dəyişikliklər (məzənnə fərqindən gəlirlər və ya zərərlər kimi) haqqında açıqlamaları təqdim etsin. Cəmiyyət həm cari, həm müqayisə dövrləri üçün məlumatı 23-cü Qeyddə təqdim etmişdir.

*12 saylı ”Realizasiya edilməmiş zərərlər üçün təxirə salınmış vergi aktivlərinin tanınması” adlı MUBS-a düzəlişlər*

Düzəlişlər izah edir ki, müəssisə gəlirdən çıxılan müvəqqəti fərqlərin qaytarılması üçün çıxılmalar edə bildiyi vergiyə cəlb edilən mənfəətin mənbələrinin vergi qanunu ilə məhdudlaşdırılıb-məhdudlaşdırılmadığını nəzərdən keçirməlidir. Bundan əlavə düzəlişlər müəssisə tərəfindən gələcək vergiyə cəlb edilən mənfəətin necə müəyyən ediləcəyinə dair göstərişlər verir və hansı hallarda vergiyə cəlb edilən mənfəətə aktivlərin balans dəyərindən artıq olan bərpa məbləğinin daxil edilməsini izah edir. Cəmiyyət düzəlişləri retrospektiv qaydada tətbiq etmişdir. Buna baxmayaraq, Cəmiyyətin düzəlişlər çərçivəsində olan gəlirdən çıxılan müvəqqəti fərqlərin və ya aktivlərin olmaması səbəbindən onların tətbiqi Cəmiyyətin maliyyə vəziyyəti və nəticələrinə heç bir təsir göstərməmişdir.

## 3. HPBS-də iştirak payının alınması

1-ci Qeyddə göstərildiyi kimi, Cəmiyyət ASM əsasında HPBS-də keçmiş podratçıların 100%-lik iştirak payını əldə etmişdir. Bu müqavilə üzrə cəmi ödəniş məbləği 158,000,000 ABŞ dolları məbləğində raşılaşdırılmışdır. Cəmiyyət bu satınalmanı biznes olmayan aktivlər qrupunun alışı kimi tanımış və satınalmanın dəyərini fərdi olaraq müəyyən edilə bilən aktivlər və öhdəliklər arasında onların nisbi ədalətli dəyərləri əsasında bölüşdürmüşdür. Bu yanaşma Cəmiyyətin siyasətinə uyğun olmuşdur (bax Qeyd 2).

Satınalma tarixində satınalma dəyərinin müəyyən edilə bilən aktivlərə və öhdəliklərə bölüşdürülməsi aşağıdakı kimi olmuşdur:

| | **Bölüşdürülmüş dəyər** |
|---|---|
| Dağ-mədən və kəşfiyyat işlərinin aparılması hüquqları | 95,404,406 |
| Əmlak, tikili və avadanlıqlar | 24,159,181 |
| Mal-material ehtiyatları | 40,272,125 |
| Bərpa üçün ehtiyat | (1,835,712) |
| **Aktivlər qrupunun cəmi satınalma dəyəri** | **158,000,000** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 4. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlərin balans dəyərində hərəkət aşağıdakı kimi olmuşdur:

| **İlkin dəyər** | **Dağ-mədən işlərinin aparılması hüquqları** | **Kəşfiyyat işlərinin aparılması hüquqları** | **Digər qeyri-maddi aktivlər** | **Cəmi** |
|---|---|---|---|---|
| **5 iyul 2016-cı il (başlanğıc tarixi)** | **–** | **–** | **–** | **–** |
| Aktivlər qrupunun alınması (Qeyd 3) | 52,081,248 | 43,323,158 | – | **95,404,406** |
| Əlavələr | – | – | 3,234 | **3,234** |
| **31 dekabr 2016-cı il** | **52,081,248** | **43,323,158** | **3,234** | **95,407,640** |
| Əlavələr | – | – | 8,343 | **8,343** |
| **31 dekabr 2017-ci il** | **52,081,248** | **43,323,158** | **11,577** | **95,415,983** |
| | | | | |
| **Amortizasiya və tükənmə*** | | | | |
| **5 iyul 2016-cı il (başlanğıc tarixi)** | – | – | – | **–** |
| İl üzrə amortizasiya və tükənmə xərci | – | – | (287) | **(287)** |
| Kəşfiyyat işlərinin aparılması hüquqlarının dəyərsizləşməsi | – | (21,096,737) | – | **(21,096,737)** |
| **31 dekabr 2016-cı il** | **–** | **(21,096,737)** | **(287)** | **(21,097,024)** |
| İl üzrə amortizasiya və tükənmə xərci | (10,862,809) | – | (1,972) | **(10,864,781)** |
| Əvvəllər dəyərsizləşmiş kəşfiyyat işlərinin aparılması hüquqları üzrə dəyərsizləşmə zərərinin geri qaytarılması | – | 14,081,026 | – | **14,081,026** |
| **31 dekabr 2017-ci il** | **(10,862,809)** | **(7,015,711)** | **(2,259)** | **(17,880,779)** |
| | | | | |
| **Xalis balans dəyəri** | | | | |
| **31 dekabr 2016-cı il** | **52,081,248** | **22,226,421** | **2,947** | **74,310,616** |
| **31 dekabr 2017-ci il** | **41,218,439** | **36,307,447** | **9,318** | **77,535,204** |

* *Tükənmə xərci Çovdar Oksid yatağının dağ-mədən hüquqlarının tükənməsini təmsil edir. Tükənmə bu yataqda 2017-ci ildə kommersiya hasilatı başlayandan hesablanmağa başlanmışdır.*

3 saylı Qeyddə göstərildiyi kimi, Cəmiyyət keçmiş podratçılardan aktivlər qrupunu almışdır. Bunlara 52,081,248 ABŞ dolları məbləğində Çovdar Oksid yatağında dağ-mədən işlərinin aparılması üzrə hüquqlar və müvafiq olaraq 22,620,465 ABŞ dolları və 20,702,693 ABŞ dolları məbləğlərində Çovdar Sulfid və Filizçay yataqlarında kəşfiyyat fəaliyyəti üzrə hüquqları daxil olmuşdur. 2 saylı Qeyddə göstərildiyi kimi, Cəmiyyət dəyərsizləşmə təhlilini aparmış və Çovdar Sulfid yatağında kəşfiyyət işlərinin aparılması hüquqları ilə əlaqədar 31 dekabr 2016-cı il tarixininə 21,096,737 ABŞ dolları məbləğində dəyərsizləşmə zərərini və 31 dekabr 2017-ci il tarixinə 14,081,026 ABŞ dolları məbləğində dəyərsizləşmə zərərinin geri qaytarılmasını tanımışdır.

5 dekabr 2016-cı il tarixində HPBS-yə xitam verildikdən sonra Cəmiyyət hasilata başlamaq məqsədilə ETSN-dən Çovdar Oksid yatağında dağ-mədən işlərinin görülməsi üçün lisenziya almışdır. 11 may 2017-ci il tarixində Cəmiyyət ETSN-dən Çovdar Sulfid (2021-ci il may ayınadək), Filizçay və Mazımçay (hər ikisi 2022-ci il dekabr ayınadək) sahələrində kəşfiyyat işlərinin görülməsi məqsədilə kəşfiyyat lisenziyası almışdır. Sözügedən dağ-mədən obyektləri üçün Cəmiyyət tərəfindən heç bir lisenziya xərci çəkilməmiş və ya kapitallaşdırılmamışdır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 5. Kəşfiyyat və qiymətləndirmə aktivləri

Kəşfiyyat və qiymətləndirmə aktivlərinin balans dəyərində hərəkət aşağıdakı kimi olmuşdur:

| **İlkin dəyər** | **Çovdar Sulfid** | **Filizçay** | **Mazımçay** | **Cəmi** |
|---|---|---|---|---|
| **5 iyul 2016-cı il (başlanğıc tarixi)** | **–** | **–** | **–** | **–** |
| Əlavələr | – | – | – | **–** |
| **31 dekabr 2016-cı il** | **–** | **–** | **–** | **–** |
| Əlavələr | 267,542 | 245,121 | 152,608 | **665,271** |
| **31 dekabr 2017-ci il** | **267,542** | **245,121** | **152,608** | **665,271** |

ETSN-dən kəşfiyyat lisenziyasının əldə edilməsindən sonra 2017-ci il ərzində Cəmiyyət Çovdar Sulfid, Filizçay və Mazımçay yataqlarında kəşfiyyat işlərinə başlamışdır. Cari ilin kəşfiyyat xərclərinə axtarış, qazma xərcləri və podratçılara ilkin layihə və ilkin texniki-iqtisadi tədqiqatlar üçün aparılmış ödənişlər daxildir. 31 dekabr 2017-ci il tarixinə kəşfiyyat və qiymətləndirmə aktivləri üçün dəyərsizləşmə zərəri tanınmamışdır (2016-cı il: sıfır).

## 6. Əmlak, tikili və avadanlıqlar

Əmlak, tikili və avadanlıqların balans dəyərində hərəkət aşağıdakı kimi olmuşdur:

| **İlkin dəyər** | **Tikili, avadanlıq və nəqliyyat vasitələri** | **Binalar** | **İstehsal mədənləri** | **Tikilməkdə olan aktiv** | **Digər** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| **5 iyul 2016-cı il (başlanğıc tarixi)** | **–** | **–** | **–** | **–** | **–** | **–** |
| Aktivlər qrupunun alınması (Qeyd 3) | 915,892 | 188,117 | 22,954,357 | – | 100,815 | **24,159,181** |
| Əlavələr | 309,468 | – | 36,373 | 9,947 | 128,108 | **483,896** |
| Bərpa üçün ehtiyatda dəyişiklik (Qeyd 15) | – | – | (58,907) | – | – | **(58,907)** |
| **31 dekabr 2016-cı il** | **1,225,360** | **188,117** | **22,931,823** | **9,947** | **228,923** | **24,584,170** |
| Əlavələr | 140,787 | – | 1,434,532 | 125,844 | 205,344 | **1,906,507** |
| Bərpa üçün ehtiyatda dəyişiklik (Qeyd 15) | – | – | (76,166) | – | – | **(76,166)** |
| **31 dekabr 2017-ci il** | **1,366,147** | **188,117** | **24,290,189** | **135,791** | **434,267** | **26,414,511** |
| **Köhnəlmə, tükənmə və dəyərsizləşmə*** | | | | | | |
| **5 iyul 2016-cı il (başlanğıc tarixi)** | **–** | **–** | **–** | **–** | **–** | **–** |
| İl üzrə köhnəlmə və tükənmə xərci | (76,232) | (6,434) | – | – | (10,691) | **(93,357)** |
| Dəyərsizləşmə | – | – | – | – | – | **–** |
| **31 dekabr 2016-cı il** | **(76,232)** | **(6,434)** | **–** | **–** | **(10,691)** | **(93,357)** |
| İl üzrə köhnəlmə və tükənmə xərci | (320,026) | (13,168) | (5,033,294) | – | (70,770) | **(5,437,258)** |
| Dəyərsizləşmə | – | – | – | – | – | **–** |
| **31 dekabr 2017-ci il** | **(396,258)** | **(19,602)** | **(5,033,294)** | **–** | **(81,461)** | **(5,530,615)** |
| **Xalis balans dəyəri** | | | | | | |
| **31 dekabr 2016-cı il** | **1,149,128** | **181,683** | **22,931,823** | **9,947** | **218,232** | **24,490,813** |
| **31 dekabr 2017-ci il** | **969,889** | **168,515** | **19,256,895** | **135,791** | **352,806** | **20,883,896** |

* *İstehsal mədənləri Çovdar Oksid yatağına aiddir və istehsal vahidi metoduna uyğun olaraq tükənir. Tükənmə bu yataqda 2017-ci ildə kommersiya hasilatı başlayandan hesablanmağa başlanmışdır.*

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 6. Əmlak, tikili və avadanlıqlar (davamı)

3 saylı Qeyddə göstərildiyi kimi, Cəmiyyət keçmiş podratçılardan aktivlər qrupunun alınması çərçivəsində əmlak, tikili və avadanlıqlar əldə etmişdir. Əmlak, tikili və avadanlıqlar əsasən istehsal mədənlərindən və Çovdar Oksid yatağında müvafiq bərpa xərclərindən ibarətdir.

31 dekabr 2017-ci il tarixinə, istehsal mədənlərin xalis balans dəyərinə 1,958,431 (2016-cı il: 1,776,805 ABŞ dolları) məbləğində kapitallaşdırılmış bərpa xərcləri daxildir.

## 7. Avans ödənişləri

31 dekabr 2017-ci il tarixinə cari avans ödənişləri dağ-mədən əməliyyatları, materialların təchizatı, təmir və texniki xidmət işləri, baş ofisin icarəsi və digər xidmətlər üçün təchizatçılara edilmiş və cəmi 1,045,346 ABŞ dolları (2016-cı il: 511,929 ABŞ dolları) məbləğində olan ödənişlərdən ibarət olmuşdur. Bu avans ödənişlərinin növbəti il ərzində istifadə edilməsi gözlənilir.

31 dekabr 2017-ci il tarixinə 1,514,513 ABŞ dolları (2016-cı il: sıfır) məbləğində uzunmüddətli avans ödənişləri əsas etibarı ilə təchizatçılara Çovdar Oksid yatağında topa aşındırma sistemi, drenaj şəbəkəsi və sianid hovuzunun tikintisi üçün edilmiş ödənişlərdən ibarətdir.

## 8. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri

31 dekabr tarixinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri aşağıdakılardan ibarət olmuşdur:

| | **2017** | **2016** |
|---|---|---|
| Bankda pul vəsaitləri, ABŞ dolları | 4,963,994 | 95,585 |
| Bankda pul vəsaitləri, Azərbaycan manatı (“AZN”) | 3,157 | 77,236 |
| Kassada pul vəsaitləri, AZN | 2,386 | 1,473 |
| ƏDV depozit hesabı, AZN | 2,597 | – |
| **Cəmi pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **4,972,134** | **174,294** |

1 yanvar 2008-ci il tarixindən başlayaraq dövlət vergi orqanları ƏDV depozit hesablarını və bu hesablar vasitəsilə əvəzləşdirilən və hesablanan ƏDV üzrə icbari ödəmələri tətbiq etmişdir. Bu yeni vergi qanunvericiliyinə uyğun olmaq üçün Cəmiyyət ƏDV üzrə depozit hesabını açmışdır. Bu qanunvericiliyə uyğun olaraq ƏDV depozit hesabındakı qalıq vergi orqanlarına 45 gün əvvəl bildiriş göndərməklə çıxarılır. Banklarda pul vəsaitləri üzrə faiz hesablanmır.

## 9. Mal-material ehtiyatları

31 dekabr tarixinə mal-material ehtiyatları aşağıdakılardan ibarət olmuşdur:

| | **2017** | **2016** |
|---|---|---|
| Qızıl külçələr | 4,944,088 | 34,810,717 |
| Filiz anbarında olan filiz | 1,756,411 | 492,904 |
| Materiallar | 787,540 | 2,068,829 |
| Emalda olan metal | 505,813 | 2,771,086 |
| **Cəmi mal-material ehtiyatları** | **7,993,852** | **40,143,536** |

3 saylı Qeyddə göstərildiyi kimi, Cəmiyyət keçmiş podratçılardan aktivlər qrupunun alınması çərçivəsində cəmi 40,272,125 ABŞ dolları dəyərində olmaqla, 34,810,117 ABŞ dolları məbləğində qızıl külçələr, 934,473 ABŞ dolları məbləğində filiz ehtiyatları, 2,222,784 ABŞ dolları məbləğində material və ehtiyatları və 2,304,151 ABŞ dolları məbləğində emalda olan metaldan ibarət mal-material ehtiyatlarını əldə etmişdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 9. Mal-material ehtiyatları (davamı)

2016-cı il ərzində, Cəmiyyət 1,127,926 ABŞ dolları məbləğində əlavə xərcləri, və 441,569 ABŞ dolları məbləğində filiz anbarında olan filiz ehtiyatını emalda olan metal balansına köçürmüş və bu hesabda tanımışdır. Aktivlər qrupunun alınması çərçivəsində əldə edilmiş qızıl külçələri Cəmiyyət tərəfindən 2017-ci il ərzində satılmışdır.

Cəmiyyət mal-material ehtiyatlarını daha aşağı çəkilmiş xərc və mümkün xalis satış dəyəri ilə tanıyır. 31 dekabr 2016-cı il tarixinə Cəmiyyət 1,102,561 ABŞ dolları məbləğində mal-material ehtiyatlarının silinməsi xərcini tanımışdır. Qeyd olunan silinmə xərci tam olaraq emalda olan metal balansına aid olmuşdur. 31 dekabr 2017-ci il tarixinə Cəmiyyətdə mal-materialların silinmə xərci olmamışdır.

## 10. Ticarət və digər debitor borcları

Ticarət debitor borcları üzrə faiz hesablanmır və müddəti adətən 30 gün olur. 31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə Cəmiyyətin ticarət debitor borcları olmamışdır. 31 dekabr 2017-ci il tarixinə Cəmiyyətin digər debitor borcları üçüncü tərəfə mal-material ehtiyatlarının satışından 127,732 ABŞ dolları (2016-cı il: sıfır) məbləğində ödənilməmiş debitor borcundan ibarət olmuşdur.

## 11. Digər cari aktivlər / digər cari öhdəliklər

31 dekabr 2017-ci il tarixinə 715,418 ABŞ dolları (2016-cı il: 91,688 ABŞ dolları) məbləğində digər cari aktivlər əsasən Cəmiyyətin büdcədən tələb edilə bilən ƏDV-dən ibarət olmuşdur.

Büdcədən tələb edilə bilən ƏDV hesabat tarixinə kreditor borcların ƏDV-sini əks etdirir. Bu məbləğ ƏDV üzrə kreditor borcu ilə əvəzləşdirilərək və ya birbaşa ödəmələrlə vergi orqanları tərəfindən qaytarılır. Rəhbərlik vergilər üzrə debitor borcların qalığını müntəzəm olaraq nəzərdən keçirir və hesab edir ki, onlar bir il ərzində əvəzləşdirilə bilər.

31 dekabr 2017-ci il tarixinə digər cari öhdəliklərə 70,605 ABŞ dolları (2016-cı il: sıfır) məbləğində ƏDV üzrə hesablamalar, 388,014 ABŞ dolları (2016-cı il: sıfır) məbləğində torpaq vergisi üzrə hesablamalar, 194,007 ABŞ dolları (2016-cı il: sıfır) məbləğində əmlak vergisi üzrə hesablamalar və 240,247 ABŞ dolları (2016-cı il: 73,478 ABŞ dolları) məbləğində digər cari öhdəliklər daxildir.

## 12. Mənfəət vergisi

31 dekabr tarixində başa çatan illər üzrə mənfəət vergisi faydasının əsas komponentləri aşağıdakılardır:

| | 2017 | 2016 |
|---|---|---|
| **Cari mənfəət vergisi** | | |
| Cari mənfəət vergisi xərci | – | – |
| **Təxirə salınmış mənfəət vergisi** | | |
| Müvəqqəti fərqlərin yaranması və qaytarılmasına aid olan fayda | 1,200,382 | 1,132,032 |
| **Mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabatda göstərilən cəmi mənfəət vergisi faydası** | **1,200,382** | **1,132,032** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 12. Mənfəət vergisi (davamı)

31 dekabr tarixinə başa çatan illər üzrə mühasibat uçotu mənfəəti/(zərəri) və cəmi mənfəət vergisi faydası arasında üzləşdirmə aşağıdakı cədvəldə təqdim edilir:

| | 2017 | 2016 |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mühasibat uçotu mənfəəti/(zərəri)** | **20,857,342** | **(23,283,825)** |
| Yerli qanunvericiliyə uyğun vergi dərəcəsi | 20% | 20% |
| **Yerli qanunvericiliyə uyğun vergi dərəcəsinə əsasən nəzəri mənfəət vergisi xərci/(faydası)** | **4,171,468** | **(4,656,765)** |
| Tanınmamış müvəqqəti fərqlər | (5,312,395) | 3,441,643 |
| MHBS-də tanınmamış gəlir/(xərc) | 1,316,792 | (3,136,425) |
| Məzənnə fərqi | (1,154,496) | 3,115,187 |
| Digər | (221,751) | 104,328 |
| **Mənfəət və ya zəzər və digər ümumi gəlir haqqında hesabatda göstərilən cəmi mənfəət vergisi faydası** | **(1,200,382)** | **(1,132,032)** |

3 saylı Qeyddə göstərildiyi kimi, Cəmiyyət HPBS-də keçmiş podratçıların iştirak paylarını almış və bu əməliyyatı aktivlər qrupunun alınması kimi tanımışdır. Cəmiyyət aktivlər qrupunun alınmasından irəli gələn müvəqqəti fərqlər üçün təxirə salınmış vergi tanımır, çünki həmin müvəqqəti fərqlər 2 saylı Qeyddə göstərilmiş ilkin tanıma istisnası şərtlərinə uyğundur.

31 dekabr 2017-ci və 2016-cı il tarixlərində başa çatan illər üzrə tanınmamış müvəqqəti fərqlər ilkin tanıma istisnasının aid olduğu müvəqqəti fərqlərdə sonrakı dəyişikliklərin vergiyə təsirinə aiddir.

MHBS-də tanınmamış gəlir/(zərər) AZN-in ABŞ dollarına qarşı məzənnə dəyişməsindən irəli gələn yerli qanunvericiliyə uyğun mənfəət vergisi bəyannaməsində göstərilmiş 6,583,959 ABŞ dolları məbləğində gəlirə (2016-cı il: 15,682,123 ABŞ dolları məbləğində zərər) aiddir. Yerli banklardan ABŞ dolları ilə əldə edilmiş kreditlər və keçmiş podratçılara ABŞ dolları ilə ödəniləcək məbləğ, AZN ilə mənfəət vergisi bəyannaməsi hazırlandığı zaman məzənnə fərqlərinə gətirib çıxarmışdır. Nəticədə, MHBS-də tanınmamış mənfəət vergisi faydası və ya xərci yuxarıdakı üzləşdirmədə əks etdirilmişdir.

31 dekabr 2017-ci il və 2016-cı il tarixlərinə məzənnə fərqləri, müvafiq olaraq, mənfəət vergisi faydası və xərcinə aid olaraq, AZN ilə mənfəət vergisi bəyannaməsinin Cəmiyyətin funksional valyutası olan ABŞ dollarına çevrilməsindən irəli gələn məzənnə fərqlərindən irəli gəlir.

31 dekabr tarixinə təxirə salınmış vergi aşağıdakı kimi olmuşdur:

| | **Maliyyə vəziyyəti haqqında hesabat** | | **Mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat** | |
|---|---|---|---|---|
| | **2017** | **2016** | **2017** | **2016** |
| Əmlak, tikili və avadanlıqlar | (411,905) | (926,051) | 514,146 | (926,051) |
| Qeyri-maddi aktivlər | (1,095,698) | (806,268) | (289,430) | (806,268) |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri | (24,489) | – | (24,489) | – |
| Mal-material ehtiyatları | – | (976,715) | 976,715 | (976,715) |
| Avans ödənişləri | (38,998) | – | (38,998) | – |
| **Təxirə salınmış vergi öhdəliyi** | **(1,571,090)** | **(2,709,034)** | | |
| Gələcək dövrə köçürülmüş vergi zərərləri | 2,817,561 | 3,466,840 | (649,279) | 3,466,840 |
| Bərpa üçün ehtiyat | 512,254 | 355,361 | 156,893 | 355,361 |
| Mal-material ehtiyatları | 231,854 | – | 231,854 | – |
| Avans ödənişləri | – | 8,794 | (8,794) | 8,794 |
| Ticarət və digər kreditor borcları | 341,835 | 10,071 | 331,764 | 10,071 |
| **Təxirə salınmış vergi aktivi** | **3,903,504** | **3,841,066** | | |
| **Təxirə salınmış mənfəət vergisi faydası** | | | **1,200,382** | **1,132,032** |
| **Xalis təxirə salınmış vergi aktivi** | **2,332,414** | **1,132,032** | | |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 12. Mənfəət vergisi (davamı)

Təxirə salınmış vergi aktivin realizasiya ediləcəyi və ya öhdəliyin yerinə yetiriləcəyi dövrdə tətbiq edilməsi gözlənilən vergi dərəcələri ilə hesablanır.

Təxirə salınmış vergi aktiv və öhdəliklərinin əvəzləşdirilməsi cari vergi aktivləri və cari vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüquq olduqda, təxirə salınmış vergi aktiv və öhdəlikləri eyni vergi orqanı tərəfindən vergiyə cəlb edilən müəssisə aid olduqda həyata keçirilə bilər. Beləliklə, Cəmiyyət cari aktivlərini və öhdəliklərini xalis şəkildə Azərbaycan Respublikasında əvəzləşdirmək niyyətindədir.

Gələcək dövrə köçürülmüş istifadə edilməmiş vergi zərərləri üzrə təxirə salınmış vergi aktivləri gələcəkdə istifadə edilməmiş vergi zərərlərinin istifadə edilməsi üçün vergiyə cəlb edilən mənfəətin mövcud olması ehtimal edildiyi dərəcədə tanınır.

31 dekabr 2017-ci il tarixinə Cəmiyyətin 14,087,807 ABŞ dolları (2016-cı il: 17,334,198 ABŞ dolları) məbləğində gələcək mənfəət üzrə qarşılıqlı əvəzləşdirilməsi mümkün olan istifadə edilməmiş mənfəət zərərləri olmuşdur. Cəmiyyət bu mənfəət zərərləri üçün təxirə salınmış vergi aktivləri tanımışdır.

## 13. Səhm kapitalı

31 dekabr 2017-ci il və 2016-cı il tarixlərinə buraxılmasına icazə verilmiş və tam ödənilmiş səhm kapitalı hər birinin nominal dəyəri 1 AZN olmaqla 2,000,000 adi səhmdən ibarətdir. Səhm kapitalı ilkin dəyərlə hesabat valyutasına çevrilir və 1,296,600 ABŞ dollarına bərabərdir.

## 14. Faiz hesablanan kreditlər və borc öhdəlikləri

31 dekabr tarixinə faiz hesablanan kreditlər və borc öhdəlikləri keçmiş podratçılara ödəniləcək məbləği ödəmək və gündəlik əməliyyatları maliyyələşdirmək üçün Xalq Bank və Paşa Bankdan alınmış aşağıdakı kreditlərdən ibarət olmuşdur:

| | Effektiv faiz dərəcəsi | Ödəniş tarixi | 2017 | 2016 |
|---|---|---|---|---|
| **Cari** | | | | |
| Xalq Bank krediti – 116,000,000 ABŞ dolları | 4% | 25 noyabr 2021-ci il | 58,001 | 77,334 |
| Paşa Bank krediti – 15,800,000 ABŞ dolları | 4% | 23 noyabr 2021-ci il | 3,741,548 | 316,096 |
| Paşa Bank krediti – 7,601,314 ABŞ dolları | 4% | 23 noyabr 2021-ci il | 1,454,514 | – |
| Paşa Bank (bərpa olunmayan kredit xətti) | 4% | 23 noyabr 2021-ci il | – | 31,011 |
| **Cəmi** | | | **5,254,063** | **424,441** |
| **Uzunmüddətli** | | | | |
| Xalq Bank krediti – 116,000,000 ABŞ dolları | 4% | 25 noyabr 2021-ci il | 87,000,000 | 116,000,000 |
| Paşa Bank krediti – 15,800,000 ABŞ dolları | 4% | 23 noyabr 2021-ci il | 11,768,184 | 15,499,397 |
| Paşa Bank krediti – 7,601,314 ABŞ dolları | 4% | 23 noyabr 2021-ci il | 6,172,137 | – |
| Paşa Bank (bərpa olunmayan kredit xətti) | 4% | 23 noyabr 2021-ci il | – | 1,598,989 |
| **Cəmi** | | | **104,940,321** | **133,098,386** |

### Xalq Bank krediti

Cəmiyyət 25 noyabr 2016-cı il tarixində Xalq Bankdan illik 4% dərəcəsi olan 116,000,000 ABŞ dolları məbləğində kredit almışdır. Kredit, keçmiş podratçılardan aktivlər qrupunun alınmasını maliyyələşdirmək üçün istifadə edilmişdir. Kreditin əsas məbləği 29,000,000 ABŞ dollarına bərabər olan dörd bərabər ödənişlə qaytarılmalıdır. Ödəniş cədvəlinə uyğun olaraq əsas məbləğin ilk ödənişi 2018-ci ilin noyabr ayındadır. Kreditə qarşı heç bir girov qoyulmamışdır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 14. Faiz hesablanan kreditlər və borclar (davamı)

### Xalq Bank krediti (davamı)

2017-ci il ərzində Cəmiyyət 29,000,000 ABŞ dolları məbləğində erkən ödəniş etmiş və ödəniş cədvəlinə müvafiq düzəliş etmişdir (bax Qeyd 27).

### Paşa Bank kreditləri

23 noyabr 2016-cı il tarixində Cəmiyyət Paşa Bankdan illik 4% dərəcəsi olan 15,800,000 ABŞ dolları məbləğində kredit almışdır. Kredit keçmiş podratçılardan aktivlər qrupunun alınmasını maliyyələşdirmək üçün istifadə edilmişdir. Ödəniş cədvəlinə uyğun olaraq kredit müddətinin ilk 13 ayı ərzində yalnız kredit üzrə faizlər ödənilməlidir. Kreditin əsas və faiz məbləğləri 2017-ci ilin dekabr ayından etibarən azalan qalıqla 356,780 ABŞ dollarına bərabər olan 48 bərabər aylıq ödənişlə qaytarılmalıdır. Kreditə qarşı heç bir girov qoyulmamışdır.

1 mart 2017-ci il tarixində Cəmiyyət Paşa Bankdan illik 4% dərəcəsi olan 7,601,314 ABŞ dolları məbləğində kredit almışdır. Kredit keçmiş podratçılardan aktivlər qrupunun alınmasını maliyyələşdirmək üçün istifadə edilmişdir. Ödəniş cədvəlinə uyğun olaraq kredit müddətinin ilk 12 ayı ərzində yalnız kredit üzrə faizlər ödənilməlidir. Kreditin əsas və faiz məbləğləri 2018-ci ilin aprel ayından etibarən azalan qalıqla 182,193 ABŞ dollarına bərabər olan 45 bərabər aylıq ödənişlə qaytarılmalıdır. Kreditə qarşı heç bir girov qoyulmamışdır.

23 noyabr 2016-cı il tarixində Cəmiyyət Paşa Bankla illik 4% dərəcəsi və cəmi məbləği 10,000,000 ABŞ dolları olan bərpa olunmayan kredit xətti haqqında razılaşma imzalamışdır. Bu kredit xətti Cəmiyyətin gündəlik əməliyyatlarını maliyyələşdirmək üçün açılmışdır. 2017-ci il ərzində Cəmiyyət bu kredit xətti üzrə 4,201,367 ABŞ dollarını (2016-cı il: 1,630,000 ABŞ dollarını) istifadə etmiş və toplam 5,831,367 ABŞ dolları məbləğində istifadə edilmiş məbləği tam qaytarmışdır. Kredit xəttinə qarşı heç bir girov qoyulmamışdır.

Faiz hesablanan kreditlər və borc öhdəlikləri üzrə cəmi faiz xərci 5,158,337 ABŞ dolları (2016-cı il: 534,439 ABŞ dolları) məbləğində olmuşdur.

## 15. Bərpa üçün ehtiyat

Bərpa üçün ehtiyatın balans dəyərində hərəkət aşağıdakı kimi olmuşdur:

| | **2017** | **2016** |
|---|---|---|
| **1 yanvar / 5 iyul (başlanğıc)** | **1,776,805** | **–** |
| Aktivlər qrupunun alınması (Qeyd 3) | – | 1,835,712 |
| Əlavələr | 773,923 | – |
| Diskontlaşdırılmış dəyərə düzəliş | 86,707 | – |
| Diskont dərəcəsində dəyişikliyin təsiri | (76,166) | (58,907) |
| **31 dekabr** | **2,561,269** | **1,776,805** |

Cəmiyyət mədənlərin işlənilməsi və qurğuların quraşdırılması və istifadə edilməsi zamanı diskont əsasında mədən sahələrinin və əlaqəli istehsal qurğularının gələcək bərpası xərcləri üçün tam ehtiyat ayırır. Bərpa üçün ehtiyat 2028-2030 illər ərzində, yəni Çovdar yatağında istehsal mədən aktivlərinin əməliyyatlarının dayandırılması gözlənildiyi zaman çəkilməsi gözlənilən mədən sahələri ilə əlaqədar bərpa xərclərinin cari dəyərindən ibarətdir. Bu işin maya dəyərinin, o cümlədən düzəltmə xərclərinin, davamlı əsasla aparılan bağlanış, bərpa və ətraf mühitin çirklənməsinə nəzarət xərclərinin qiymətləndirmələri mədənin təxmin edilən müddətinə əsaslanır.

3-cü Qeyddə göstərildiyi kimi, Cəmiyyət keçmiş podratçılardan satınalma tarixində 1,835,712 ABŞ dolları məbləğində olan bərpa üçün ehtiyat da daxil olmaqla aktivlər qrupunu əldə etmişdir. 31 dekabr 2017-ci il tarixinə bərpa ehtiyatının diskont edilməmiş dəyəri 3,666,084 ABŞ dolları (2016-cı il: 2,558,327 ABŞ dolları) olmuşdur. Cəmiyyət bu dəyəri diskont etmək üçün 5.05% (2016-cı il: 4.88%) dərəcəsindən istifadə etmişdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 16. Ticarət və digər kreditor borcları

31 dekabr tarixinə ticarət və digər kreditor borcları aşağıdakılardan ibarət olmuşdur:

| | 2017 | 2016 |
|---|---|---|
| Ticarət kreditor borcları | 1,774,891 | – |
| Hesablamalar və digər kreditor borcları | 459,832 | 136,991 |
| **Cəmi ticarət və digər kreditor borcları** | **2,234,723** | **136,991** |

31 dekabr 2017-ci il tarixinə ticarət kreditor borcları əsas etibarı ilə ticarət alışları və cari əməliyyat xərcləri üçün ödənilməmiş məbləğlərdən ibarət olmuşdur. Ticarət kreditor borcları üzrə faiz hesablanmır və orta kreditor borclarının ödənilməsi müddəti il ərzində 11 gün olmuşdur. 2016-cı ildə Cəmiyyətin əməliyyat xərcləri və bununla əlaqədar kreditor borcları olmamışdır. Hesablamalar və digər kreditor borcları əsasən ilkin planlama, ilkin texniki-iqtisadi tədqiqatlar, geoloji təqdiqat və eləcə də üçüncü tərəflərin təqdim etdiyi digər xidmətlərdən ibarətdir.

## 17. Ödəniləcək vəsait

3-cü Qeyddə göstərildiyi kimi Cəmiyyət keçmiş podratçılardan ümumi dəyəri 158,000,000 ABŞ dolları olan aktivlər qrupunu əldə etmişdir. 2017-ci və 2016-cı illər ərzində Cəmiyyət keçmiş podratçılara ümumi dəyərin bir hissəsini, müvafiq olaraq, 25,500,000 ABŞ dolları və 131,800,000 ABŞ dolları məbləğini ödəmişdir. Bu cəmi ödənişlərdən 139,401,314 ABŞ dolları yerli banklardan alınmış kreditlər vasitəsilə maliyyələşdirilmiş (Qeyd 14) və qalan hissəsi isə 2017-ci il ərzində qızıl külçə satışlarından əldə edilmiş pul vəsaitlərinin hesabına ödənilmişdir.

31 dekabr 2017-ci il tarixinə, keçmiş podratçılara ödəniləcək vəsaitin məbləği 700,000 ABŞ dolları (2016-cı il: 26,200,000 ABŞ dolları) təşkil etmişdir. 27 saylı Qeyddə göstərildiyi kimi, bu ödəniləcək vəsait Cəmiyyət tərəfindən 31 dekabr 2017-ci il tarixindən sonra tam ödənilmişdir.

## 18. Gəlirlər

2016-cı il ərzində Cəmiyyətin satışları olmamışdır. 2017-ci il ərzində cəmi gəlirlər qızıl və gümüşün üçüncü tərəf müştərilərinə satılmasından ibarət olmuş və müvafiq olaraq 75,868,119 ABŞ dolları və 1,438,087 ABŞ dolları təşkil etmişdir.

## 19. Əməliyyat mənfəəti/(zərəri)

Əməliyyat mənfəəti/(zərəri) aşağıdakılar çıxıldıqdan/(əlavə olunduqdan) sonra göstərilir:

| | Qeydlər | 2017 | 2016 |
|---|---|---|---|
| Qeyri-maddi aktivlərin amortizasiyası və tükənməsi | 4 | 10,864,781 | 287 |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi və tükənməsi | 6 | 5,437,258 | 93,357 |
| Çıxılsın: mal-material ehtiyatlarına kapitallaşdırılmış qeyri-maddi aktivlərin amortizasiyası və tükənməsi | | (633,179) | – |
| Çıxılsın: mal-material ehtiyatlarına kapitallaşdırılmış əmlak, tikili və avadanlıqların amortizasiyası və tükənməsi | | (369,277) | – |
| **Cəmi köhnəlmə, tükənmə və amortizasiya** | | **15,299,583** | **93,644** |
| Əməliyyat icarəsi üzrə ödənişlər | | 541,130 | 30,154 |
| Kəşfiyyat işlərinin aparılması hüquqlarının dəyərsizləşməsi | 4 | – | 21,096,737 |
| Əvvəllər dəyərsizləşmiş kəşfiyyat işlərinin aparılması hüquqları üzrə dəyərsizləşmə zərərinin geri qaytarılması | 4 | (14,081,026) | – |
| İşçilərə ödənişlər | | 3,664,302 | 369,167 |
| Mal-material ehtiyatlarının silinməsi | 9 | – | 1,102,561 |
| Xərc kimi tanınmış mal-material ehtiyatlarının dəyəri | | 45,743,749 | – |
| Xalis məzənnə fərqindən zərər | 20 | 106,763 | 10,191 |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 20. Digər əməliyyat xərcləri

31 dekabr tarixində başa çatan illər üzrə digər ümumi xərclər aşağıdakılardan ibarət olmuşdur:

| | 2017 | 2016 |
|---|---|---|
| Məzənnə fərqindən xalis zərər | 106,763 | 10,191 |
| Sığorta xərci | 99,096 | – |
| Emal xərcləri | 85,180 | – |
| Daşıma xərcləri | 58,076 | – |
| Digər xərclər | 42,042 | – |
| **Cəmi digər əməliyyat xərcləri** | **391,157** | **10,191** |

## 21. Ümumi və inzibati xərclər

31 dekabr tarixində başa çatan illər üzrə ümumi və inzibati xərclər aşağıdakılardan ibarət olmuşdur:

| | 2017 | 2016 |
|---|---|---|
| Əmək haqqı xərcləri | 1,326,245 | 369,167 |
| Hüquq və məsləhət xidmətləri | 518,521 | – |
| İcarə xərci | 394,307 | 30,154 |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi və tükənməsi | 132,392 | 16,263 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 1,972 | – |
| Ofis təchizatı xərcləri | 80,823 | 1,715 |
| Bank xərcləri | 56,071 | 40,186 |
| Digər xərclər | 245,778 | 85,475 |
| **Cəmi ümumi və inzibati xərclər** | **2,756,109** | **542,960** |

## 22. Maliyyə xərcləri

31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə 5,245,044 ABŞ dolları (2016-cı il: 534,439 ABŞ dolları) məbləğində maliyyə xərcləri, müvafiq olaraq, 5,158,337 ABŞ dolları və 86,707 ABŞ dolları məbləğində faiz hesablanan kreditlər və borc öhdəlikləri üzrə faiz xərci və bərpa üçün ehtiyatın diskontlaşdırılmış dəyərinə düzəlişdən ibarət olmuşdur (2016-cı il: 534,439 ABŞ dolları və sıfır).

## 23. Maliyyə riskinin idarə edilməsinin məqsədləri ve qaydaları

Cəmiyyətin əsas maliyyə öhdəlikləri faiz hesablanan kreditlər və borc öhdəlikləri, ticarət və digər kreditor borcları və ödəniləcək vəsaitlərdən ibarətdir. Bu maliyyə öhdəliklərinin əsas məqsədi Cəmiyyətin 2016-cı il ərzində aktivlər qrupunun alınması və Cəmiyyətin 2017-ci il ərzində davam edən dağ-mədən əməliyyatlarının maliyyələşdirilməsidir. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və ticarət və digər debitor borcları Cəmiyyətin bilavasitə əməliyyatlarından irəli gələn əsas maliyyə aktivləridir.

Cəmiyyət hesab edir ki, təqdim olunmuş maliyyə hesabatlarında maliyyə alətləri kimi əks etdirilmiş məbləğlər onların ədalətli dəyərini məntiqi dərəcədə təxmin edir. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ticarət və digər debitor borcları, ticarət və digər kreditor borcları, ödəniləcək vəsaitlər və digər cari pul aktivləri və öhdəliklərinin ədalətli dəyəri, bu aktivlər qısamüddətli olduğu üçün, təxminən bu aktivlərin balans dəyərinə bərabərdir. Faiz hesablanan kreditlərin və borc öhdəliklərinin balans dəyəri ədalətli dəyəri təxmin edir, çünki, faktiki olaraq, bütün borclar ilin sonuna qüvvədə olan bazar şəraitləri əsasında əldə edilmişdir.

Cəmiyyətin maliyyə aktivlərinə, öhdəliklərinə və ya gələcək pul vəsaitlərinin hərəkətinə mənfi təsir göstərə biləcək əsas risklər aşağıdakılardır: əmtəə qiyməti riski, pul vəsaitlərinin hərəkəti üzrə faiz dərəcəsi riski və valyuta riski, likvidlik riski və kredit riskidir. Rəhbərlik aşağıda göstərilən kimi bu risklərin hər birini idarə etmək qaydalarını nəzərdən keçirir və razılaşdırır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 23. Maliyyə riskinin idarə edilməsinin məqsədləri ve qaydaları (davamı)

### Bazar riski

Bazar riski maliyyə alətlərinin gələcək pul vəsaitləri hərəkətlərinin ədalətli dəyərinin bazar parametrlərində dəyişikliklər nəticəsində tərəddüd etməsi riskidir. Bazar riskləri üç növ riskdən ibarətdir: xammal riski, faiz dərəcəsi riski və valyuta riski. Bazar riskinin təsirinə məruz qalan maliyyə alətlərinə faiz hesablanan kreditlər və borc öhdəlikləri, ticarət debitor borcları və ticarət və digər kreditor borcları daxildir.

Aşağıda, həmçinin, Cəmiyyətin maliyyə alətlərinin bazardakı dəyişkən göstəricilərdəki dəyişikliklərə həssaslığını əks etdirmək üçün nəzərdə tutulan həssaslıq təhlili təqdim edilir və müvafiq hallarda mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat və səhmdar kapitalına təsir göstərilir.

Həssaslıq 31 dekabr 2017-ci və 2016-cı il tarixlərində başa çatan illər üzrə həmin hesabat tarixlərində saxlanılan borc və digər maliyyə aktivləri və öhdəliklərinin məbləğlərini istifadə etməklə hazırlanmışdır.

*Əmtəə qiyməti riski*

Cəmiyyətin fəaliyyəti əsasən gəlirlərə birbaşa təsir göstərən qızıl və gümüş qiymətlərində dəyişikliklərdən maliyyə riskinə məruz qalır. Rəhbərlik bu malların spot qiymətinə daim nəzarət edir. Həmin malların forvard qiymətləri də mütəmadi olaraq izlənilir. Cəmiyyətin məhsullarının əksəriyyəti satış tarixində spot qiymətə istinadən satılır. Bununla yanaşı, rəhbərlik kommersiya baxımdan əlverişli olduqda malların alqı-satqısı üçün forvard və opsion müqavilələrini imzalayacaq.

31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə qızılın qiymətində 10 faiz azalma gəlirlərin 7,586,812 ABŞ dolları məbləğində azalması, 10 faiz artım isə eyni əks təsirlə nəticələnə bilərdi.

31 dekabr 2017-ci il tarixində başa çatan il üzrə gümüşün qiymətində 10 faiz azalma gəlirlərin 143,809 ABŞ dolları məbləğində azalması, 10 faiz artım isə eyni əks təsirlə nəticələnə bilərdi.

*Faiz dərəcəsi riski*

Cəmiyyət dəyişkən dərəcə ilə faiz hesablanan aktivlər və öhdəliklər saxlamır və buna görə də 31 dekabr 2017-ci il və 2016-cı il tarixlərinə faiz dərəcəsi riskinə məruz qalmır (bax Qeyd 14).

*Valyuta riski*

Xarici valyuta riski maliyyə alətinin ədalətli dəyərinin və ya gələcək pul vəsaitləri hərəkətlərinin xarici valyuta məzənnələrində dəyişikliklərə görə tərəddüd etməsi riskidir.

Cəmiyyətin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Cəmiyyətin biznesinin əhəmiyyətli hissəsi ABŞ dolları, AZN və Böyük Britaniyanın funt sterlinqi ilə (“GBP”) ifadə edilir.

Cəmiyyətin xarici valyuta ilə ifadə edilmiş monetar aktivlər və öhdəliklərinin balans dəyəri 31 dekabrda aşağıdakı kimi olmuşdur:

| | **Öhdəliklər** | | **Aktivlər** | |
|---|---|---|---|---|
| | **2017 ABŞ dolları** | **2016 ABŞ dolları** | **2017 ABŞ dolları** | **2016 ABŞ dolları** |
| AZN | 1,977,091 | 75,894 | 135,872 | 78,709 |
| GBP | 4,115 | – | – | – |
| **Cəmi** | **1,981,206** | **75,894** | **135,872** | **78,709** |

Cəmiyyət xarici valyuta ilə ifadə edilmiş maliyyə alətlərini hedc etməmişdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 23. Maliyyə riskinin idarə edilməsinin məqsədləri ve qaydaları (davamı)

### Bazar riski (davamı)

*Valyuta riski (davamı)*

Aşağıdakı cədvəl Cəmiyyətin vergidən əvvəl mənfəətinin 31 dekabrda monetar aktivlərin və öhdəliklərin balans dəyərində dəyişikliklərə görə, bütün digər dəyişkən göstəricilərin sabit qalması şərti ilə, AZN və GBP-də mümkün dəyişikliyə həssaslığı nümayiş etdirir:

| | Məzənnədə dəyişiklik | | Vergidən əvvəl mənfəətə təsir | |
|---|---|---|---|---|
| **2017** | **Artma** | **Azalma** | **Artma** | **Azalma** |
| AZN | 11.3% | 11.3% | 238,765 | (238,765) |
| GBP | 11% | 7% | 453 | (288) |

| | Məzənnədə dəyişiklik | | Vergidən əvvəl mənfəətə təsir | |
|---|---|---|---|---|
| **2016** | **Artma** | **Azalma** | **Artma** | **Azalma** |
| AZN | 20% | 20% | 30,921 | (30,921) |
| GBP | 6% | 18% | – | – |

### Kredit riski

Maliyyə alətləri müxtəlif səviyyədə kredit risklərinə məruz qalır. Cəmiyyət pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri portfeli, ticarət və digər debitor borcları ilə əlaqədar kredit riskinə və qarşı tərəf şərtləri yerinə yetirmədiyi təqdirdə, zərərlərə məruz qala bilər.

Cəmiyyət pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ticarət və digər debitor borcları üzrə risk konsentrasiyasını aşağı qiymətləndirir, çünki pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərini yüksək kreditli ödəmə qabiliyyəti olan maliyyə təşkilatlarında yerləşdirir və yalnız tanınmış nüfuzlu şirkətlərlə əməkdaşlıq edir.

Cəmiyyətin 31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə üçüncü tərəflərdən ticarət debitor borcları olmamışdır. 31 dekabr 2017-ci il tarixinə digər debitor borcları 2017-ci il başa çatandan sonra tam ödənilmişdir.

Cəmiyyətin maksimal kredit riski 31 dekabr 2017-ci il tarixinə 5,099,866 ABŞ dolları təşkil etmişdir (2016-cı il: 174,294 ABŞ dolları).

### Likvidlik riski

Cəmiyyət vəsaitlərin çatışmazlığı riskini müntəzəm qaydada xalis maliyyə borcu göstəricisini təhlil etməklə nəzarət altında saxlayır. Xalis maliyyə borcu cəmi maliyyə öhdəlikləri və pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri arasındakı fərqdən ibarətdir. Cəmiyyətin məqsədi bank overdraftlarından istifadə etməklə maliyyələşdirmənin fasiləsizliyi və çevikliyi arasında tarazlığın saxlanmasıdır.

Aşağıdakı cədvəllərdə Cəmiyyətin müqavilələr üzrə diskontsuz ödənişlər əsasında 31 dekabr 2017-ci və 2016-cı il tarixlərinə maliyyə öhdəliklərinin müddətləri göstərilmişdir.

| **2017** | **Tələb əsasında** | **3 ayadək** | **3 aydan 12 ayadək** | **1 ildən 5 ilədək** | **5 ildən artıq** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | – | 2,036,634 | 7,458,569 | 112,726,760 | – | **122,221,963** |
| Ticarət və digər kreditor borcları | – | 2,234,723 | – | – | – | **2,234,723** |
| Ödəniləcək vəsait | 700,000 | – | – | – | – | **700,000** |
| | **700,000** | **4,271,357** | **7,458,569** | **112,726,760** | **–** | **125,156,686** |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 23. Maliyyə riskinin idarə edilməsinin məqsədləri ve qaydaları (davamı)

### Likvidlik riski (davamı)

| 2016 | Tələb əsasında | 3 ayadək | 3 aydan 12 ayadək | 1 ildən 5 ilədək | 5 ildən artıq | Cəmi |
|---|---|---|---|---|---|---|
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | – | 1,368,006 | 4,304,682 | 145,715,158 | – | **151,387,846** |
| Ticarət və digər kreditor borcları | – | 136,991 | – | – | – | **136,991** |
| Ödəniləcək vəsait | – | – | 26,200,000 | – | – | **26,200,000** |
| | **–** | **1,504,997** | **30,504,682** | **145,715,158** | **–** | **177,724,837** |

### Maliyyələşdirmə fəaliyyətindən irəli gələn öhdəliklərdə dəyişikliklər

| | 1 yanvar 2017-ci il | Pul vəsaitlərinin hərəkəti | Faiz xərci | Digər | 31 dekabr 2017-ci il |
|---|---|---|---|---|---|
| Faiz hesablanan uzunmüddətli kreditlər və borc öhdəlikləri | 133,098,386 | (22,997,674) | – | (5,160,391) | 104,940,321 |
| Faiz hesablanan cari kredit və borclar | 424,441 | (5,489,106) | 5,158,337 | 5,160,391 | 5,254,063 |
| **Cəmi maliyyələşdirmə fəaliyyəti üzrə öhdəliklər** | **133,522,827** | **(28,486,780)** | **5,158,337** | **–** | **110,194,384** |

| | 5 iyul 2016-cı il (başlanğıc tarixi) | Pul vəsaitlərinin hərəkəti | Faiz xərci | Digər | 31 dekabr 2016-cı il |
|---|---|---|---|---|---|
| Faiz hesablanan uzunmüddətli kreditlər və borc öhdəlikləri | – | 133,430,000 | – | (331,614) | 133,098,386 |
| Faiz hesablanan cari kredit və borclar | – | (441,612) | 534,439 | 331,614 | 424,441 |
| **Cəmi maliyyələşdirmə fəaliyyəti üzrə öhdəliklər** | **–** | **132,988,388** | **534,439** | **–** | **133,522,827** |

"Digər" - faiz hesablanan kreditlərin və borc öhdəliklərinin bir hissəsin ilin sonunda vaxt keçdiyinə görə "uzunmüddətli" kateqoriyadan "cari" kateqoriyasına yenidən təsnif edilməsinin nəticəsidir.

### Kapitalın idarə edilməsi

Kapitalın idarə edilməsində ilkin məqsəd – Cəmiyyətin fəaliyyətini dəstəkləmək və səhmdar dəyərini artırmaq üçün sağlam kredit reytinqinin və güclü kapital əmsallarının saxlanmasının təmin edilməsidir.

Cəmiyyət, xalis borcunu kapitalın və xalis borcun cəminə bölərək müəyyən edilən ödəmə qabiliyyəti əmsalından istifadə etməklə kapitala nəzarət edir. 31 dekabr 2017-ci il tarixinə ödəmə qabiliyyəti əmsalı 99% (2016-cı il: 119%) təşkil etmişdir. Cəmiyyətin uzunmüddətli siyasəti ödəmə qabiliyyəti əmsalını 50%-dən aşağı saxlamaqdır.

| | 2017 | 2016 |
|---|---|---|
| Faiz hesablanan kreditlər və borc öhdəlikləri | 110,194,384 | 133,522,827 |
| Çıxılsın pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | (4,972,134) | (174,294) |
| **Xalis borc** | **105,222,250** | **133,348,533** |
| Kapital | 1,202,531 | (20,855,193) |
| **Kapital və xalis borc** | **106,424,781** | **112,493,340** |
| **Ödəmə qabiliyyəti əmsalı** | **99%** | **119%** |

## 24. Əhəmiyyətli qeyri-nağd investisiya fəaliyyətləri

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinin istifadəsini tələb etməyən və 31 dekabr tarixinə olan pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan çıxarılmış investisiya əməliyyatları:

| | 2017 | 2016 |
|---|---|---|
| İl ərzində bərpa üçün ehtiyatda dəyişiklik (Qeyd 15) | (76,166) | (58,907) |
| İl ərzində kapitallaşdırılmış bərpa üçün ehtiyat (Qeyd 15) | 773,923 | – |
| Aktivlər qrupunun alınmasının bir hissəsi olaraq əldə edilmiş bərpa üçün ehtiyat (Qeyd 3) | – | 1,835,712 |
| **Cəmi qeyri-nağd investisiya fəaliyyətləri** | **697,757** | **1,776,805** |

## 25. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri

### Əməliyyat mühiti

Cəmiyyətin əməliyyatları Azərbaycan Respublikasında həyata keçirilir. Azərbaycan iqtisadi islahatları aparmağa, hüquqi, vergi və nizamlayıcı çərçivələri təkmilləşdirməyə davam edir. Azərbaycan iqtisadiyyatının gələcək sabitliyi önəmli dərəcədə bu islahatlar və dəyişikliklərdən, eləcə də hökumətin gördüyü iqtisadi, maliyyə və monetar tədbirlərinin effektivliyindən, həmçinin xam neftin qiymətindən və Azərbaycan manatının sabitliyindən asılıdır.

Azərbaycan iqtisadiyyatı neft qiymətlərinin aşağı düşməsi və Azərbaycan manatının 2015-ci il ərzində devalvasiyasının mənfi təsirinə məruz qalmışdır. Bu, kapital əldə etmək imkanlarının məhdudlaşması, kapital dəyərinin artması, inflyasiya və iqtisadi artımın qeyri-müəyyənliyi kimi amillərə səbəb olmuşdur.

Bu çətinliklərə cavab olaraq, Azərbaycan hökuməti islahatları sürətləndirmək və maliyyə sisteminə dəstək vermək planlarını açıqlamışdır. 6 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ni təsdiqləmişdir. Yol xəritəsi 2016-2020-ci illərdə inkişaf strategiyasını, 2025-ci ilə qədər uzunmüddətli perspektivləri və 2025-ci ildən sonrakı dövrü əhatə edir.

Bundan əlavə, 2017-ci ildə hökumət sərt pul siyasətini davam etdirmiş, eləcə də Azərbaycan manatının stabilləşdirilməsinə xarici valyuta ehtiyatları ayırmışdır. Bu siyasətin 2018-ci ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilmişdir.

Rəhbərlik cari şəraitdə baş verən iqtisadi dəyişiklikləri izləməkdədir və Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir.

### Vergi qanunvericiliyi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyinə mütəmadi olaraq müxtəlif şərhlər və dəyişikliklər edilir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən bu cür qanunvericiliyə dair Rəhbərliyin şərhlərinə müvafiq səlahiyyətli orqanlar tərəfindən etiraz edilə bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqeləri qorunacaq və Cəmiyyətin potensial vergi öhdəlikləri hazırkı maliyyə hesabatlarında qeydə alınmış məbləğlərdən artıq olmayacaqdır.

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik öz təxminlərinə və daxili və xarici peşəkarların məsləhətlərinə əsaslanaraq hesab edir ki, iddialarla bağlı hazırkı maliyyə hesabatlarında ayrılmış ehtiyatlardan artıq heç bir əhəmiyyətli zərər olmayacaqdır.

### Əməliyyat icarə öhdəliyi

31 dekabr 2017-ci il tarixinə, Cəmiyyətin 84,464 ABŞ dolları məbləğində, baş ofisin icarəsi ilə əlaqədar, əməliyyat icarə öhdəliyi olmuşdur. Bu öhdəlik 1 il ərzində ödənilməlidir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla məbləğlər ABŞ dolları ilə təqdim edilir)*

## 25. Potensial öhdəliklər, təəhhüdlər və əməliyyat riskləri (davamı)

### Aktivlər qrupunun əldə edilməsi ilə bağlı öhdəlik

ASM-ə əsasən və ödəmə cədvəlinə uyğun olaraq, Cəmiyyət 1 may 2017-ci il tarixinədək cəmi 158,000,000 ABŞ dolları məbləğini keçmiş podratçılara ödəməlidir. 2016-cı və 2017-ci illər ərzində Cəmiyyət, müvafiq olaraq, 131,800,000 ABŞ dolları və 25,500,000 ABŞ dolları məbləğlərini ödəmişdir. 31 dekabr 2017-ci il tarixinə Cəmiyyətin keçmiş podratçılara cəmi ödəniləcək vəsaitinin məbləği 700,000 ABŞ dolları olmuşdur. Rəhbərliyə əsasən, əldə edilmiş aktivlər qrupu ilə əlaqədar keçmiş podratçılarla təhvil-təslim aktının imzalanması prosesi gözlənildiyindən daha uzun çəkmişdir. Buna görə də 31 dekabr 2017-ci il tarixinə ödəniləcək məbləğ sonradan, 2018-ci il ərzində tam ödənilmişdir. Cəmiyyət hesab edir ki, 31 dekabr 2017-ci il tarixinə ödəniləcək vəsaitin gecikdirilməsi Cəmiyyətə qarşı iddia və ya məhkəmə araşdırmalarının qaldırılması ilə nəticələnməyəcək.

## 26. Əlaqəli tərəflərlə əməliyyatlar

Cəmiyyət dövlət müəssisələri ilə əlaqədar 24 saylı "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı MUBS əsasında əlaqəli tərəflə əməliyyatlar və cari qalıqlar, o cümlədən təəhhüdlər, ilə bağlı müəyyən məlumatların açıqlanması tələblərindən istisnanı tətbiq etmişdir. Lakin Cəmiyyət fərdi olaraq əhəmiyyətli əməliyyatları müəyyən etmiş və onları aşağıdakı cədvəldə açıqlamışdır:

| | **Alışlar** | **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **Ticarət və digər kreditor borcları** |
|---|---|---|---|
| 2017 | 862,335 | 858 | 49,889 |
| 2016 | 148,760 | 75,952 | 11,737 |

31 dekabr 2017-ci il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar əsas etibarı ilə, müvafiq olaraq, 648,287 ABŞ dolları və 92,199 ABŞ dolları (2016-cı il: müvafiq olaraq, 115,868 ABŞ dolları və sıfır) məbləğində yanacaq və təhlükəsizlik xidməti xərclərindən ibarətdir.

31 dekabr 2017-ci il tarixinə Cəmiyyətin bir (2016-cı il: bir) dövlət ilə əlaqəli bankda saxlanılan 858 ABŞ dolları (2016-cı il: 75,952 ABŞ dolları) məbləğində pul vəsaitləri olmuşdur.

### Baş rəhbərlik üzvlərinə ödənişlər

31 dekabr 2017-ci il və 2016-cı il tarixlərinə Cəmiyyətin baş rəhbərliyi Cəmiyyətin Sədri, Sədr Müavini və Maliyyə Şöbəsinin Müdirindən ibarət olmuşdur. Baş rəhbərlik heyətinə ödənişlər il ərzində cəmi 131,222 ABŞ dolları (2016-cı il: 35,113 ABŞ dolları) olmuşdur.

## 27. Hesabat tarixindən sonra baş vermiş hadisələr

14-cü Qeyddə göstərildiyi kimi, Cəmiyyət Xalq Banka 2018-ci ilin noyabr ayında ödənilməli olan 29,000,000 ABŞ dolları əsas kredit məbləğini, 2017-ci ildə vaxtından əvvəl ödəmişdir. Əlavə olaraq, Cəmiyyət 2018-ci ildə, 2019-cu ilin noyabr ayında ödənilməli olan 29,000,000 ABŞ dolları əsas kredit məbləğindən 3,500,000 ABŞ dolları məbləğini vaxtından əvvəl ödəmişdir. Qeyd olunan vaxtından əvvəl ödənişlərin nəticəsi olaraq, Cəmiyyət 2018-ci ildə Xalq Bankla olan kredit ödəniş cədvəlinə müvafiq düzəlişlər etmişdir. Kreditin son ödəmə tarixi və bu kredit üzrə digər şərtlər dəyişməz olaraq qalmışdır.

2018-ci ilin mart ayında, Cəmiyyət Göydağ yatağında kəşfiyyat işlərinin aparılması üçün ETSN-dən lisenziya almışdır. Bu lisenziya 2020-ci ilin dekabr ayınadək etibarlıdır.

2018-ci ilin noyabr ayında, Cəmiyyət Filizçay və Mazımçay mədən yataqlarında kəşfiyyat işlərinin aparılması üçün ETSN-dən alınmış lisenziyaların müddətini daha 5 il uzatmışdır. Adıçəkilən mədən yataqları üçün lisenziyaların müddəti 2022-ci ilin dekabr ayınadək etibarlıdır.

2018-ci ildə Cəmiyyət keçmiş podratçılar qarşısında 700,000 ABŞ dolları məbləğində ödəniləcək vəsaiti tam ödəmişdir.